**BÖYÜK YARADANA**

Ey böyük Yaradan, ey qadir Allah!
Doğulduq…İşlətdik nə qədər günah?

Coşdu içimizdə saysız diləklər,
İblis hiylələrlə doldu ürəklər.

Öncə nizə, qalxan, qılınc yaratdıq,
Ov tək bir-birinin köksünə atdıq.

Əsirlər ötdükcə coşdu ehtiras,
Vəhşi əlimizlə quruldu min yas.

Bizə Əzrayılla əcəl göndərdin,
Miskin cəsədləri torpağa sərdin.

Böldün bəndələri neçə qisimə,
Sonda məzar qıydın yalnız cisimə.

Anlaya-anlaya öləriyik biz,
Tanrı hüzurunda qatlamadıq diz.

Vəhşi tək hey qırdıq biri-birini,
Sən bizdən qorudun haqqın sirrini.

Böyük Yaradanım, səbr ilə yerə,
Hey dinlər göndərdin inansın hərə.

Sonuncu dininsə oldu pak İslam!
Müqəddəs peyğəmbər Məhəmməd-salam.

O gül çöhrəsinə nur bəxş eylədin,
Quranı köksünə Sən nəqş eylədin.

Ərəb səhraları, Məkkə, Mədinə,
Tapındı rəhminə, tapındı dinə.

İslamın işığı dünyanı tutdu,
Diz çöküb səcdənə, özün unutdu.

Fəqət, parçalandı cahanda dinlər,
İnsan da bu sitəm içində inlər…

Xaçpərəst, müsəlman, yəhudi, yezdi…
Torpaq, su üstündə el-eli əzdi.

Böyük Yaradanım, töküldü qanlar,
Məzara gömüldü əcəlsiz canlar.

Sənsə yüksəklikdən baxıb bəndənə,
Saldın ölərləri çox çəndən-çənə.

Qopartdın yerlərin min yol bağrını,
Məzara döşədin acı, ağrını.

Neçə yurd torpağın altında qaldı,
Hökmünlə bəndələr min yol alçaldı.

Gah sellər yaratdın, gahsa zəlzələ,
Qurdun ölərlərə, ey Tanrım, tələ.

Unudub qəzəbi, coşdular yenə,
Bəzən xor baxdılar Haqqa və Dinə.

Qılınclar gülləylə əvəz olundu,
Tanklarla, toplarla qeyrət alındı.

Basıldı vicdanlar raketlər ilə,
Cahanda hökm etdi iblis və hiylə.

Sənsə qəh-qəh çəkdin ünsüz fələkdən,
Güldün bəndələrə min yol ürəkdən.

İnsanlar dinlərlə fitnə qurdular,
Savaşa yollandı saysız ordular.

Qanlar su yerinə axdı dünyada,
Atdılar namusu, qeyrəti oda,

İsanın, Musanın müqəddəs ruhu,
Böyük Mühəmədin(s) naləsi, ahı.

Qırdı dünyamızı hey qəzəb ilə,
Məzara göndərdi min əzab ilə.

Bizsə unutqanlıq yolunu tutduq,
Allahı, Quranı, Haqqı unutduq.

Özümüzü səndən qüdrətli bildik,
Sildik içimizdən inamı, sildik.

Namus da, qeyrət də qiymətdən düşdü…
Bəndənin ayağı hər dəm sürüşdü.

Ölüm-qapımızda gülləyə döndü,
Söndü evimizin çırağı, söndü.

Böyük Yaradanım, adil hökmünlə,
Döndərdin ağılı, ürəyi külə.

Allahım, ey Tanrım, yuvam-məmləkət,
Başının üstündə qara fəlakət.

Yağı evimizə tökür gülləni,
Qurur torpağıma min bir hiyləni…

Yanır diri-diri ana, bacılar,
Dolaşır yurdumda ağrı-acılar.

Sitəmdən usanmış, könlümüz talan,
Yenə taxtı-tacda oturub yalan.

Hökmylə namərdi bütə döndərir
Tülkünü quduza, itə döndərir.

Adilim, Kərimim, Haqqım, İlahi,
Qoyma məhkəməsiz naleyi-ahi,

Müqəddəs hökmünlə özün divan qur,
Yalanın, fitnənin sən boynunu vur.

Bir azca işıq ver qaranlıq yurda,
Amandır, quzunu tapşırma qurda.

Hökmü-fərmanınla zülmət nur olsun,
Yetər, içimizə halallıq dolsun.

Böyük Yaradanım, ümidim sənə,
Şahlıq quşu göndər sadiq ölkənə.

Ayılıb binəva millət yuxudan,
Özün qurtar onu qara-qorxudan.

Bu Şadiman sənə sadiq bəndədi,
Özün də görürsən yaman gündədi.

Gəl qoluzorluğu vermə yetənə,
Son qurbanlıq eylə məni Vətənə!

Hazıram, cismimi məzara göndər,
AZƏRBAYCANIMA AZADLIQ GÖNDƏR!!!

13.12.1991

**QORU, ALLAHIM**

Sənin tufanın da, küləyin də nur,
Sənin dünya adlı ürəyin də nur,
Göylərdən sütunlu dirəyin də nur,
Bizi izimizdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Sənin dairəndə bu dünya üzük,
Sənə tövbə edib suç edən bizik,
Sənin atəşinin oduna közük,

Bizi közümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Bizi əyri yoldan əyləyən də sən,
Adəmi imtahan eyləyən də sən,
Nizam-tərəzidən söyləyən də sən…
Bizi gözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

İblisi içində bizləyir bəşər,
Haqqı, ədaləti dizləyir bəşər,
Üzünü min rənglə gizləyir bəşər,
Bizi üzümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Dodaqlar əsirdi Haqq duasına,
Qaytar bu dünyanı öz yuvasına,
Şadiman qul olub söz havasına,
Bizi sözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.
8.12.1997

**SAXLA GÖYDƏ HƏLƏ DAŞI, ALLAH**

Qarışıb bu dünyanın əhvalı,
Dəyişib yerin, göyün nə halı?
Zaman da fırlanır lap dal-dalı,
Düşür haqq kitaba qeylü-qalı,
Ağlayır gözlərin yaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Bəşərin üzü dönüb Xudadan,
Qurtula bilməyir heç ədadan,
Əskik olmur nə başı qadadan?
Batıb göyün qulağı sədadan,
Qanmayır etdiyin naşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Mələşir ac-yalavac adamlar,
Qəm ilə, ah ilə dolu damlar,
Söndürülür çox bədəndə şamlar,
Çatmayır məramına heç kamlar,
Bəladı insana başı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Hər işin kəmi-kəsiri olur,
Yalanlar haram qəsiri olur,
Tamahkar varın əsiri olur,
Yoxsulun bircə həsiri olur,
Görməyir ocaqda aşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Çoxunun gözlərini qan tutur,
Qorxmayır əzrayıldan can tutur,
Ömrünü uzatmaqçın an tutur,
Yer üzün su yerinə qan tutur…
Dəbdədi ölüm təlaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Yaratdın bu dünyanı qalmağa,
Bəni-bəşərlə yeri dolmağa,
Payızında əcəllə solmağa,
Etmədin şər yuvası olmağa ?…
Gəl, bu qurduğunu daşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Bəşərin batıb özü ahına,
Bulaşıb etdiyi günahına,
Guman yoxdu haqqın sabahına,
Yalandan quldu səcdəgahına,
Çox çəkib dünyanın başı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Yetimin, yoxsulun şəfası yox,
Bilirsən, bəndənin vəfası yox,
Vallahi, cahanın səfası yox,
Zülmkarın niyə cəfası yox?
Zülümlərdə boğulan ası çox,
Əcəli sanır sirdaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Dönübdü dinlər əldə uşağa…
Yalanlar axır başdan-aşağa,
Bağlanıb zər-zibatək qurşağa,
Göy ilə yer arsı qovşağa,
Bilinmir hiylənin yaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Xaçpərəst müsəlmanla öcəşir,
Düşür nə araya hər gün həşir?!
Əzrayılın ürəyin ah deşir,
Dinlərin bağrını zülüm eşir,
Tanımır qardaş-qardaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Qadirim, ruzini verən, sənsən,
Hər canı tənindən dərən, sənsən,
Bədəni torpağa sərən, sənsən,
Həm göydə, həm yerdə ərən, sənsən.
Qurmusan harda bardaşı, Allah?
Saxla göydə hələ daşı, Allah.

Yer adlı mənzilimiz vay olur,
Yalana, fitnəyə bir hay olur,

Gözümüzdə yaşımız çay olur,
Bəndələr Əzrayıla tay olur,
Bu dünya salır çaşbaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Ruhumuz məzarımıza gülür,
Bu fələk azarımıza gülür,
İç dolu ah-zarımıza gülür,
Qəbirə güzarımıza gülür,
Olubdu bəşər daşbaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Şadiman sanki düşüb röyaya,
Mat qalıb bəşərdə bu xülyaya,
Peşiman, gəldiyiçün dünyaya,
Sığınıb sən verdiyin həyaya,
Çatılıb ələmdən qaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.
Saxla göydə hələ daşı, Allah.

01. X11. 2002

**NƏDİR BƏŞƏRƏ QALAN,**

**RƏBB EŞQİYLƏ YANMASA?…**

Bu dünya hicran dolu ağrıların açarı,
Dərə-təpəyə salır zülümlərdən naçarı,
Ömrü qılınctək kəsən zaman haqqın uçarı,
Doğulub-ölən bəşər vaxta doğru qaçarı,
Pislik qəlbdən yan keçər qəlb pisliyi anmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hər dəryanın sevgisi fırtınadan doğarkən,
Qasırğa iblis təki dalğaları boğarkən,
Bu vəhşətdən diksinib şimşəklər qan sağarkən,
Buludun gözlərindən sel tək gurşad yağarkən,
Can təndə heyrətlənib bu dəhşəti anmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hərə dərrakəsinin zəkasından boylanır,
Çox düşünən beyinlər ah içində vaylanır,
Fırlanır gidi cahan vaxt əlində haylanır,
Dünyaya ayaq basan adam təki saylanır,
Bədəndə baş gəzdirən əgər bunu qanmasa…
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hər zalımın canında günahların gözü var,
Pislik şərdən doğulub şərin min bir üzü var,
Dünyadan gedənlərin bu dünyada gözü var,
Can bədəndən çıxanda ruhun sirli özü var…
Sağ ikən vicdanına qul olub dayanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Zülüm həddini aşıb dağdan, daşdan ahlanır,
Vicdanı təmiz olan vicdançın günahlanır,
Şişir sinədə ürək ağrıyla sabahlanır,
Yer dözmür əzablara gündə min yol laxlanır,
Zəka qalxıb ayağa haqqına oyanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Bu sərvət, bu cah-cəlal cana yağı kəsilir,
Haqqın qulu, bəndələr, haqqın əli kəsilir,
Ömür canın ölçüsü üstündə nə əsilir?
Dünya elə fırlanır gələn-gedəni silir,
Təb coşmaz, ey Şadiman, ağrıya boyanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…
19. X11. 2004

**EY XUDA**

Mum etdin hər sirini,
Açmadın heç birini,
Həm ölü, həm dirini,
Qoydun qəflət yuxuda,
Ey Xuda.

Bizi Məcnun eylədin,
Eşqə cunun eylədin,
Təni unun eylədin,
Sındı dünya oxu da,
Ey Xuda.

Hökmündə bəşər ömrü,
Dilində haqq əmiri,
Yoğurursan xəmiri,
Qalıb əldə çoxu da,
Ey Xuda.

Hər bədən açmış gülün,
Aləm gözünə tülün,
Oxur həyat bülbülün,
Burnu min bir qoxuda,
Ey Xuda.

İtirib bəşər özün,
Boyayıb şərlə üzün,
Qapına dizin-dizin…
Gələr qara-qorxuda,
Ey Xuda.

Gecəmi şam eylədin,
Təbimlə kam eylədin,
Əhdi ilham eylədin,

Əqlimi tam eylədin,
Ərşə qaçıb yuxu da,
Ey Xuda.

Şadimanı var etdin,
Canın qəmə zar etdin,
İlhamıyla yar etdin,
Bu aləmə car etdin,
Eşqin könlümə qida,
Ey Xuda…
19.02.2003

**NİYƏ ŞAİRLƏRİ YARATDIN, ALLAH?**

Dünya ağrısıyla yoğurub məni,
Ruhumu göylərdən qopartdın, Allah.
Ana bətinindən doğurub təni,
Niyə şairləri yaratdın, Allah?

Zamanın acısı sinəyə yağı,
Süzülür ürəkdən dodağa ağı,
Həyat da, dövran da, gün də bayağı,
Niyə şairləri yaratdın, Allah?

Biz Tanrı deyilik boğaq dərdləri,
Yıxaq sərhədləri, qıraq sədləri,
Namərdlər cəngindən alaq mərdləri,
Niyə şairləri yaratdın, Allah?

Ağlayan gözlərdə yaş inilləyir,
Hər şeyi düşünən baş inilləyir,
Torpaq əsir düşür, daş inilləyir,
Niyə şairləri yaratdın, Allah?

Qandallı dillərin sorğusumu var?
Yalan kəlmələrin doğrusumu var?
Fitnənin, fəsadın oğrusumu var?
Niyə şairləri yaratdın, Allah?

Dərdlərdən sinəyə tonqal qalanır,
Haqq şişə çəkilir, manqal qalanır,
Yollara, izlərə qanqal qalanır,
Niyə şairləri yaratdın, Allah?

Milli çəkişmələr, dini bölümlər,
Şahların taxtında sultan zülümlər,
Danışsaq boğazdan tutar ölümlər,
Niyə şairləri yaratdın, Allah?

Canımıza yağı hər düz sözümüz,
Zindan sinəmizə dustaq özümüz,

Bir yol ölənədək gülmür üzümüz…
Niyə şairləri yaratdın, Allah?

Madam ki, kəlməmiz boğazda qalır,
Hər dilin üsyanı ağızda qalır,
Hər yazılan misra kağızda qalır…
Niyə şairləri yaratdın, Allah?
3.08.1996

## FƏLƏK

Məni dəli edib fitnə-fəsadlar,
Ağıldan dayazlar, qəlbdən kəsadlar,
Mənsəbə, şöhrətə, pula həsadlar,
Pisliyin əlində imkandı fələk,
Bu necə zəmanə, məkandı, fələk?

İçimdə ağlardır saysız diləklər,
Niyə imkansıza daşdı ürəklər?
Dünyanı qiymətdən salıb kələklər,
Dövran zalımlara sükandı fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Çox eldə, çox yurdda tökülür qanlar,
Vaxtsız torpaq olur növrəstə canlar,
Dünyaya beşgünlük gələn insanlar,
Özü öz qanını tökəndi, fələk,
Bu necə zəmanə məkandı, fələk?

Məramı hiyləylə sovulanların,
Bəxti çay daşı tək ovulanların,
Öz yurd-yuvasından qovulanların,
Dərdi bir-birinə söykəndi fələk,
Bu necə zamanə, məkandı, fələk?

Dünya başdan-başa sərhəddi, səddi,
Nalədi, fəqandı, fəryaddı, dərddi,
Qan tökən zənn edir dünyada mərddi…
Zülümün evini tikəndi fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Maskalı iblislər dövran sulayır,
Qapının iti də qurdla ulayır,
Aslanlar tülküyə quyruq bulayır,
Dünya alqı-satqı dükandı, fələk,
Bu necə zəmanə məkandı, fələk?

Günahsız günahkar qazanda bişir,
Haqqını deyənlər ayağa düşür,
Gündə min yol qəlblə əcəl görüşür…
Bu dərdlər ölümə təkandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Həyat bir iblisdir, Şadiman naşı,
Neçə min Arazdır gözünün yaşı,
Yurdum parçalanıb, sıldırım qarşı…
Sərhəd dirəkləri tikandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?
8.05.1990

**DÜNYA, SEVİNCDƏN DOLDU,**
**YA KƏDƏRDƏN GÖZLƏRİN?**

Baxışından min əsrin dərdi-səri tökülür,
Gündüzünün əliylə min bir zülmət sökülür,
Gözlərinə gecənlə, sanki sürmə çəkilir,
O göz yaşın deyilmi çayların, dənizlərin?
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

İdrakla çarpışmada bu yöndəmsiz duyğular,
Pak sinəndən çəkilməz dərdi-sərlər, qayğılar,
Yenə baş alıb gedir çarpışmalar, sayğılar,
Bu həyat meydanında bükülmədidizlərin…
Dunya, sevincdən doldu, ya kədərdən gözlərin?

Tamah həddin aşanda ağıl gələr haraya,
Bəzən elə olar ki, ağ deyərlər qaraya,
Çox gəlib-gedən oldu bu bəşəri saraya,
Saxladın hafizəndə gedənlərin izlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Əsər çılğın küləklər bağrında sağa, sola,
Min ağrı-acı dolar köksündəki haqq yola,
Atın çapar sinəndə min-min tale dördnala…
Ömrünü başa vurar şahların, kənizlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Başında min bir qovğa əsirlər yola saldın,
Hər günü ötürəndə bir mərhələ qocaldın,
Namərd əlində enib, mərd əlində ucaldın,
Sinəndə köçün sürdü çirkinin, təmizlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

İdrakıının əliylə alim verdi kəşfini,
Tamah düşdü araya hey qıcıtdı dişini,
Hey döndərdin düz yola zamanın gərdişini,
Naqislər qulağına çatmayanda sözlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Şadimanın köksündə tükənməzdir məhəbbət,
Haqsız haqqına çatar gec-tez qoynunda əlbət,
Gül açsın sinən üstə xoş məramlar, xoş niyyət,
Çox-sox «mənəm» dedilər, incitdilər özlərin,

Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?
16-17.03.1986

**DÜNYA MƏNƏ TANIŞ GƏLİR**

Qəmi boldu, sevinci az,
Hər payıza bir qış gəlir.
Hər taledə bir dəfə yaz,
Dünya mənə tanış gəlir.

Çiçəyinin arısı bol,
Küpəgirən qarısı bol,
Hər ömürün yarısı yol…
Dünya mənə tanış gəlir.

Cığırının izi ləkə,
Yerində min bir mərəkə,
Ceyranını qovur təkə,
Dünya mənə tanış gəlir.

Buludların dolan vaxtı,
Külək saçın yolan vaxtı,
Bənövşəsi solan vaxtı-
Dünya mənə tanış gəlir.

Yollarını keçəndə də,
Çeşməsindən içəndə də,
Əzrayıl can biçəndə də,
Dünya mənə tanış gəlir.

Fələk alın yazanda da,
Əl məzarı qazanda da,
Yuxularım azanda da,
Dünya mənə tanış gəlir.

Son əvvəlin hey təkrarı,
Əvvəl, axır təkdə yarı,
Rəbb ovcunda bəşər darı…
Dünya mənə tanış gəlir.

Can cisimin içində sirr,
Bu cisimi sirr də kəsir,
Hər öləni yerə həsir,
Dünya mənə tanış gəlir.

Ey Şadiman, adamıyla,
Dərdlə dolu hər damıyla,
Həm fərağı, həm kamıyla-
Dünya mənə tanış gəlir.
Dünya mənə tanış gəlir.

10.12.1997

## HƏR KƏS ÖZ GÖZÜYLƏ BAXIR DÜNYAYA

Gah şəri, gah kiri yaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Cahan bir zinətdi bəşəriyyətə,
O, çağlayar, coşar ən saf niyyətə,
Salırlar yuvasın min əziyyətə,
Sonradan düşürlər, sanki heyrətə,
Gah şəri, gah kiri yaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

O, özü naz sevən ülfət istəyir,
Bəndədən yalnız xoş sifət istəyir,
Eşqini pak tutan afət istəyir,
Bu cəh-cəlalına iffət istəyir,
Hiyləni şimşəktək çaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Biri sərvətini yuvası sanır,
Biri Vətənini havası sanır,
Biri İlahini duvası sanır,
Biri haqq evini qəvvası sanır,
Gələn öz yükünü yıxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Ölkələr, sərhədlər üz-üzə durur,
Silahlar havalı göz-gözə durur,
Şahlar mənəm deyir, söz-sözə durur,
Alışır yer üzü, köz-közə durur,
Bəşər qan-yaşını sıxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Kimi əl donduran qışını söyür,
Kimi torpağını, daşını söyür,
Kimi bilinməyən yaşını söyür,
Dərdini, qəmini taxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Hər gələn cahanı bazar eyləyir,
Yurduna qan tökür, məzar eyləyir,
Gah da saray tikir, gülzar eyləyir,
Duyan könülləri yazar eyləyir,
Hərə öz dinini oxur dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Qəmini, ahını duyan tapılmır,
Dəli sevdasına uyan tapılmır,
İblisin, şeytanın oyan tapılmır,

Könlünü yolunda qoyan tapılmır,
Bəndənin ağrısı axır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Hamı nəyi isə qoparmaq istər?
Cahanın yarısın aparmaq istər,
Bağrını, köksünü lap yarmaq istər,
Razı qalan varsa bir onu göstər?
Gələnlər baxdılar axur dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Kimsə öz gözündə tiri görməyir,
Cahanı özündən iri görməyir,
Qəlbinin içində kiri görməyir,
Onun varlığını diri görməyir,
O haqq böyüklüyün, siri görməyir,
Tökür min cürə hiss, paxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Bəşərin əlində din-dinə yağı,
Allah evləriylə dolu sol-sağı,
Çox baş sahibinin dili bayağı,
Hey qana, qırğına gedir ayağı,
İnsan az, çoxusa naxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Şadiman, cahanı sanma acıdı,
O ki, insanlılığın həyat tacıdı,
Bizim əlimizdə bircə ucudu,
Haqqa yetişməyin tək əlacıdı,
Hərə elədiyin çaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.
7. 01. 2003

## İNSAN ÖZÜN İTİRİB GÜNAHLARIN İÇİNDƏ

Döyərkən acı rüzgar hər gün qapı-bacanı,
Fələk alıb aparır ömürdən can qucanı,
İblislər tənzimləyir şər-şeytana acanı,
Heç kəs görə bilməyir haqq deyilən ucanı,
Nə qədər intizar var sabahların içində?…
İnsan özün itirib günahların içində.

Dodaqdan qopan nalə göylərə pərçim olub,
Həqiqəti dərk edən hər ürək əlçim olub,
Rəbb əlində ömrümüz sutək bir içim olub,
Dilim param-parçadır eyvahların içində,
İnsan özün itirib günahların içində.

Göz yaşından yoğrulub yerin torpağı, daşı,
Ağıl dərinə gedir, silkələyir qəm başı,

Çaş-baş olan şüurlar qaçan zamana naşı,
Hönkürür içimizdən haqqa könül sirdaşı,
Çoxu canın axtarır bu ahların içində,
İnsan özün itirib günahların içində.

Zülmə mübtəla bəşər yerdən göyə dil açır,
Ağıl haqqa sığınır Yaradana əl açır,
Şüurun gülüstanda fitnə-fəsad gül açır,
Xəyallar itib gözdən əngin üfüqə qaçır,
Gün əyilir zamana gah-gahların içində,
İnsan özün itirib günahların içində.

Nə müddətdi ah deyib aha qapı açıram?
Ağlıma ismarlanıb ürəyimdən qaçıram,
Ulduz təki parlayıb, günəş təki uçuram,
Hər zəkaya yol tapıb göylərində uçuram,
Nə qədər sitəm yatır agahların içində?
İnsan özün itirib günahların içində.

Canım bədəndən çıxıb səmalarda təklənir,
Ruhum, hissim, varlığım Yaradana köklənir,
Necə ki, diləklərim həqiqətə görklənir?
İstəyim nə puç olur, zamanım hərklənir?
Qəfil bir kədər yatır pənahların içində,
İnsan özün itirib günahların içində.

Ey Şadiman, nə çaşqın boylanırsan dünyaya?
Doğulanan getmisən necə dərin röyaya?
Ömrə alüdə olub aldanmısan riyaya,
Vermə badə canını gələn–gedir xülyaya…
Ağılını tora salma hərgahların içində,
İnsan özün itirib günahların içində.

17. X1.2004

**BU QƏRBƏ BƏRƏKƏLLAH**

Kömpüterin əsiri,
Robotların qəsiri,
Sanki yoxdu kəsiri,
Röyadı, Allah, Allah,
Bu Qərbə bərəkallah.

Ürəyi qışın buzu,
Ölkələr əldə quzu.
Nə parlaqdı ulduzu?
Qan tökür saymır günah,

Bu Qərbə bərəkallah.

Yalnız dildə birləşir,
Getdikcə sehirləşir,
Be-em-te-si sirləşir,
ATƏT-lə mehirləşir,
Savaş doğur hər sabah,
Bu Qərbə bərəkallah.

Ürəyi robot olub,
Min bir yerdən çat olub,
Hiyləsi min qat olub,
Dünya batabat olub,
Nə vecinə nalə, ah,
Bu Qərbə bərəkallah.

Cahan qeylüqallaşır,
Ağalar cığallaşır,
Bəzi xalqlar ballaşır,
Yardımları yallaşır...
Ətəklərdən sallaşır,
Aclar sanır qibləgah,
Bu Qərbə bərəkallah.

Şeri də robotlaşır,
Seyri də robotlaşır,
Xeyri də robotlaşır,
Dünya necə qatlaşır?
Öz-özünə yadlaşır
Sözləri çalır gah-gah,
Bu Qərbə bərəkallah.

Fırladır Yer kürrəsin,
Göstərir fil nərəsin,
Təyyarəsin, bərəsin

Robot edib maşallah,
Bu Qərbə bərəkallah.

Ağa olub hamına,
Çəkir haqqı kamına,
Çıxır göyün damına,
Daş atır adamına,
Salır mərəkə, vallah,
Bu Qərbə bərəkallah.

Aləmi qarışdırır,
Hamının vuruşdurur,
Dinləri yarışdırır,
Dolları sırışdırır,
Olub dünyada Allah,
Bu Qərbə bərəkallah.

Svilizasiya deyərək,
Özünü hey öyərək,
Tərəzini əyərək,
Başımıza döyərək,
Əzir hamın inşallah,
Bu Qərbə bərəkallah.

Yad səyyarədən gəlib,
Ayrı heyətdən gəlib,
Hansı qüdrətdən gəlib?
Baş açmaq olmur billah,
Bu Qərbə bərəkallah.
Bu Qərbə bərəkallah.

31.X.2001.

## SİYASƏTDİ, SİYASƏT

Cahanda hey mərəkə,

Ev-ev gəzir səksəkə,
Qeyzlənir hər ölkə,
Qırğınlar alır vüsət,
Siyasətdi, siyasət.

Nə qədər ölüm qada,
Sakitlik yox dünyada,
Gedir vicdanlar bada,
İndi ən yaxşı sənət,
Siyasətdi, siyasət.

Dinlər əldə oyuncaq
Söndürülür çox ocaq,
Qan içində hər bucaq,
Artır ilbəil zillət,
Siyasətdi, siyasət.

Hökümdarlar dilləşir,
İmanla kin əlləşir,
Axan qanlar selləşir,
Düşür araya həşir,
Yalançı hörmət, izzət,
Siyasətdi, siyasət.

Ölkələr ağlaşırlar,
Ələmə bağlaşırlar,
Dərd olub dağlaşırlar,
Əzir milləti millət,
Siyasətdi, siyasət.

Böyük xalqlar ağadır,
Kiçik xalqlar çağadır,
Qartala şah qarğadır,
Yaxşılıqda hər niyyət,
Siyasətdi, siyasət.

Qanunların hər üzü,
Yatmayır gecə gözü,
Çalxalanır Yer üzü...
Sabahımız, ya qismət,
Siyasətdi, siyasət.

Savaş bəşərin dəbi,
Artdıqca artır təbi,
Kimdə qırğının həbi?!
Yəhudiylə ərəbi
Yağı edən qiyamət,
Siyasətdi, siyasət.

Fələstində qan axır,
Hökmdarlar yan baxır,
Əfqanıstanı yıxır,
Ölüm, zülüm və illət
Siyasətdi, siyasət.

Çeçenlər qara bağlar,
Ürəyi yara bağlar,
Bu dünya qalıb ağlar!
Hər şahda şaha hörmət
Siyasətdi, siyasət.

Balkanlar həzar edər,
Sinəsi ah-zar edər,
Evini məzar edər...
Orda qanlı müsibət
Siyasətdi, siyasət.

Qarabağ qara bağrı,
Kəsir bizi bu ağrı,
İblisin sözü doğru,

Haqqı ediblər oğru!
Allaha da itaət,
Siyasətdi, siyasət.

Var İsada bir dua
Qılmırsan cana rəva,
Etmə özgəyə dəva!
Kökümüz Adəm, Həvva,
Əlinizdə ibadət-
Siyasətdi, siyasət.

Milli qırğınlar daşır,
İblis, şeytan ulaşır,
Zülümlər başdan aşır,
Bütün dünya savaşır...!
Edilib qana adət,
Siyasətdi, siyasət.

Dolubdu səbrin qabı,
Göyün, Yerin yox tabı,
Allahın hər kitabı
Bəşərin haqq-hesabı!...
Tanrıya da xəyanət
Siyasətdi, siyasət.

Fitnə-feildən həzar,
Rəbbim bir ömür yazar,
Bizdən sonra dar məzar,
O da dünyaya azar,
Bunu duymaq da, əlbət
Siyasətdi, siyasət.

Ağalar dingildəyir,
Qədəhlər cingildəyir,
Tulalar zingildəyir,

Şər yolu edilib qət,
Siyasətdi, siyasət.

Ey Şadiman, etmə qəm,
Ömür bəxtə düşən dəm,
Eyləmə nəşəni kəm,
Dünya gözündəki, nəm
Şah qədəhində şərbət...
Siyasətdi, siyasət!
Siyasətdi, siyasət!

31.X.2001.

**DÜNYA SUSDU**

Qətrə-qətrə qan töküldü, çox talandı məkanımız,
İnsanlığa yaxşı bələd ali ədəb, ərkanımız,
Haqqımızı anlatmağa az tapıldı imkanımız,
Heç olmadı özümüzə, içimizə təkanımız,
Hər zülümə, müsibətə, həqarətə dünya susdu,
Ağzımıza daş basıldı, ədalətə dünya susdu.

Hey  çəkildi gözümüzə zaman-zaman yağı mili,
Hey kəsildi cəlladların əllərində haqqın dili,
Nə bir qansız, nə qovğasız olmadı ki, vətən ili,
Ocaqları kor qoydular, quru yurdda qaldı külü,
Fitvalarda biz əzildik, biz üzüldük, dünya susdu,
Kətan təki hey nazildik, hey süzüldük, dünya susdu.

Şəhidimiz məzar-məzar çoxaldıqca, adiləşdik,
Torpağımız hissə-hissə alındıqca, vadiləşdik,
Beynəlmiləl deyildikcə üzümüzə, sadələşdik,
Yurdumuzdan pay verməkçin xainlərlə, vədələşdik...
Qan töküldü, bel büküldü, yurd söküldü, dünya susdu.
Atamızın qəbirinə xaç çəkildi, dünya susdu.

Bizdən əvvəl gələnlər də birləşməyi ar bildikcə,
O tayfanın böyüklüyün bu tayfaya xar bildikcə,
Yadellinin xatunların özlərinə yar bildikcə,
Öz yurdunu, öz elini bir-birinə dar bildikcə,
Xərabəyə döndü ocaq, söndü ocaq, dünya susdu.
Aşıb-daşdı qanlı qucaq, dondu bucaq, dünya susdu.

Aman Allah, kim açacaq bizim bu kor gözümüzü?
Düşmən bildik, yağı bildik özümüzə özümüzü,
Oğurladı iblis, şeytan içimizdən közümüzü,
Yadelliyə, xainlərə öyrətdikcə üzümüzü,
Xırdalandıq, könlümüzə zəfər çaldıq dünya susdu.
Son məqamda özümüzlə tənha qaldıq, dünya susdu.

Zülüm evi yıxılmazdır min il belə ötüb keçdi,
Zəlzələlər, fırtınalar insanları ot tək biçdi,
Cahillikdən çıxmıb bəşər bir-birinin qanın içdi...
Zaman-zaman ölüm, qırğın, müsibətlər yolun seçdi,
Haqqımızı içimizdə şəhid edən, dünya susdu,
Aman Allah, bu qanlara söylə nədən dünya susdu?

Xərabəyə döndü yurdlar, bilinmədi ölüb-itən,
Unutqanlıq, biganəlik qəlbimizdə ot tək bitən,
Əslimizə, kökümüzə ağız büzdü, əfsus yetən,
Kiçildikcə, söküldükcə, büküldükcə yazıq vətən!
İnsanları işğallarda üyüldükcə, dünya susdu,
Ədalətin baş-gözünə döyüldükcə, dünya susdu.

Ey Şadiman, yandı bağrın hər əzabın cəfasından,
Kimə qaldı bu cahanın əlçatmayan vəfasından?
Zaman qaçdı, Tanrı qıymıb insanlara şəfasından,
Ocağında kül olmusan ürəyinin səfasından,
Sən alışdın alovundan yandı Günəş, dünya susdu,
Vulkan oldu könlün içi, doğdu atəş, dünya susdu.

3.04.2001.

# YALAN DÜNYA

*Şəhriyarın «Yalan dünya»*
*şeirinə nəzirə*

Nəşə yeyib kədər qusdun,
Hər addımda haqqı pusdun,
Şər önündə sən də susdun
Hər şeyə kor olan dünya,
«Yalan dünya, yalan dünya».

Ağlamayan bir göz hanı?
Hey yandırdın təndə canı,
Haçan olar haqq divanı?
Boş yerə saç yolan dünya.
«Yalan dünya, yalan dünya».

Al bəşərdən canı bir yol,
Səvabı az, günahı bol,
Hara gedir söylə bu yol?...
Savaşlarda solan dünya.
«Yalan dünya, yalan dünya».

Əllərini yuma qanla,
Bacarırsan haqqı anla,
Kədər illə, sevinc anla,
Hər addımı talan dünya.
«Yalan dünya, yalan dünya».

Əzabına tutuşan biz,
Qəmlərinə qatışan biz,
Səninlə hey atışan biz,
Zurnasın boş çalan dünya,
«Yalan dünya, yalan dünya».

Göylərini qəmin sağır,
Qəlb damına kədər yağır,
Yükün səndən min qat ağır,
Dalında çul, palan dünya.
«Yalan dünya, yalan dünya».

Saxlama heç o gödəni,
Doydurmadı tən mədəni,
Candan alıb hər bədəni...
Boş məzara salan dünya!
«Yalan dünya, yalan dünya».

Dilinin hər əmri belə...
Çıxmaz səsi-səmri belə,
Bu beşgünlük ömrü belə
Əlimizdən alan dünya.
«Yalan dünya, yalan dünya».

Soldu necə gül bədənlər,
Əzrayıl hər təni dənlər,
Doymadı ki, heç gedənlər?
Özü sona qalan dünya.
«Yalan dünya, yalan dünya».

Həyat gülün dərmədim ki,
Qəmin qolun gərmədim ki,
Mən ki, heç gün görmədim ki,
Əzabıyla kalan dünya,
«Yalan dünya, yalan dünya».

Anasından bala aldın,
Qəbirinə nə tez saldın?
Guya ki, sən zəfər çaldın,
Sənin ki, yox balan, dünya.
«Yalan dünya, yalan dünya».

Əzrayıldan nəyin əskik?
Çox dam, saray yıxıq, sökük,
Hünərin var bir yuva tik,
Varınmı heç dalan dünya?
«Yalan dünya, yalan dünya».

Çox zirvədə olan taxtı,
Təpəsindən yerə çaxdı,
Təbim kimi coşan vaxtı,
Xəyallara dalan dünya.
«Yalan dünya, yalan dünya».

Atını şər evinə çap,
Haqqı onun əlindən qap,
Ya bircə yol səadət tap,
Ya odlara qalan dünya!
«Yalan dünya, yalan dünya».

Şadimanın əsir özü,
Tutulanda qəmdən üzü,
Bulud təki ağlar gözü,
Könlüm kimi dolan dünya!...
«Yalan dünya, yalan dünya».

22-23/01.2000

**DAHA BU DÜNYAYA SƏBRİM ÇATMAYIR**

Ağrım qol götürüb oynayır mənə,
Bu haray-həşirə gözüm yatmayır.
Bütün yamanlıqlar qaynayır mənə,
Daha bu dünyaya səbrim çatmayır,

Səhərim açılır gün döyüşüdü,
İnsanın ağlında kin döyüşüdü,
Allahı şərləyən din döyüşüdü,
Daha bu dünyaya səbrim çatmayır.

Yerlərdən göylərə zülm hayqırır,
Ürək parçalanır, dilim hayqırır,

Qəlbim ocaq çatıb, külüm hayqırır,
Daha bu dünyaya səbrim çatmayır.

Şeytanla insanın bir ibadəti,
Haqqı yamanlamaq vicdan adəti,
Budurmu bəşərin can səadəti?
Daha bu dünyaya səbrim çatmayır.

Fikirlər öcəşir haray içində,
Günlərin möhnəti hər ay içində,
Ağıl xofa düşüb saray içində,
Daha bu dünyaya səbrim çatmayır.

Bir görən yoxdurmu can üzən ahı?
Zülmətin bağrından qopan sabahı,
Bir kimsə bilməyir içdə günahı?
Daha bu dünyaya səbrim çatmayır.
8. 02. 2006

**DOĞULAN PEŞİMAN, ÖLƏN PEŞİMAN**

Acılar könlümdə qübara dönüb,
Bir anlıq sevincim nübara dönüb,
Bəxtim, səadətim dübarə dönüb,
Görmədim çoxunda əqidə, iman,
Doğulan peşiman, ölən peşiman.

Dünyanın acısı-şirini zəhər,
Boğur həyatımı büsbütün qəhər,
Zaman da dördnala çapan bir kəhər…
Alır əlimizdən anları yaman,
Doğulan peşiman, ölən peşiman.

Göyün yeddi qatı sirli bir kaha,
Milyonlar öldürür naləyə, aha,
Gah toydu, gah yasdı, eyvah, sabaha,
Yolur saçlarını əlində zaman,
Doğulan peşiman, ölən peşiman.

Ərəsat gününü bir düşünən yox,
Mini ac yaşayır, biri isə tox,
Dünyanın dəlisi bilənindən çox,
Heç kəs düşünməyir axirət divan…
Doğulan peşiman, ölən peşiman.

Hərə günahının yükünə ulaq,
Axır zamanıyçın yanacaq qulaq,
Gözdən axan qanlar min çeşmə, bulaq,
Didir bir-birini sağ ikən insan!
Doğulan peşiman, ölən peşiman.

Vicdan yox, paranın bölgüsü gedir,
Ağılsız başların hörgüsü gedir,
Hər cür alçaqlığın süngüsü gedir,
Büdrəyən, yıxılan, əzilən ümman,
Doğulan peşiman, ölən peşiman.

Bir kimsə bilməyir dünya imtahan,
Pulu-parasıyla şirindi cahan,
Harama, halala çox azdı baxan,
Gözümüz önündə hər günahsız qan,
Doğulan peşiman, ölən peşiman.

Birinin altunu qucağa sığmır,
Biş-düşü min cürə, ocağa sığmır,
Birinin əyalı bucağa sığmır,
Yoxuşu, enişi, örüşü duman,
Doğulan peşiman, ölən peşiman.

Zaman hədələyir bizi ürəklə,
Leysanla, boranla, acı küləklə,
Allahlıq edirik, vallah, fələklə,
Döyür qapımıızı ölüm, ah, aman…
Doğulan peşiman, ölən peşiman.

Demə Şadimana, Tanrı, naşıdır,
Dəryalar, çeşmələr gözüm yaşııdır,
Ruhum sənin, cismim vətən daşıdır!
Əbədi deyildir bəxş etdiyin can,
Doğulan peşiman, ölən peşiman.
19.11.1992

**VERİLİR HAQQA CƏZA**

*« İblis nədir - cümlə xəyanətlərə bais,*
*Ya hər kəsə xain olan insan nədir? -İblis?»*
Hüseyn Cavid

Verilir haqqa cəza,
Basıb hər yanı qəza,
Ağlayan gözlərə bax,
Maskalı üzlərə bax,
Hamı Allahlıq edir,
Haqq deyən haqqı didir.
Allahın səbri çoxdur,
Bəndənin rəhmi yoxdur.
Dünya utanır özü,
Yoxdu deməyə sözü-
Tökülən qanlarına,
Didilən canlarına,

Bəndənin içində şər,
Alışır, yanır bəşər!
Edib həlalı əsir,
Tikdirir haram qəsir.
Üzülür bədəndə can,
Haramdı damarda qan.
Bəndənin işlərinə,
O quduz dişlərinə-
Edir tamaşa fələk,
Görür haqq olur həlak.
Neyləsin göydə mələk?
Verdiyi canlarına,
Yazıq insanlarına-
Köməyi təkcə ölüm,
Bu da cisimə zülm.
Tamah həddini aşıb,
Yerdə ara qarışıb.
Tazının tulası var,
Tulanın qalası var.
Bir deyən yoxdu, bəşər,
Nədir bu içində şər?
Səni insan eyləyən,
İşi asan eyləyən,
Hər şeyi düzüb-qoşan,
Başın üstə dolaşan,
Göydəkindən et həya,
Sal onu bircə saya.
Həm su, həm quru onun,
Gözünün nuru onun.
Göydə ki, o əndaza,
Dünya bir cismi-əza,
Başın üstə hər qəza,
Onun əmrinə əsir,
Yer ayağına həsir.
Edər çoxunu gəda,
Nədir bəs böylə əda?
Unudub haqqı-sayı,
Çəkmisiz başa vayı!
Canı qandan ayıran,
Cismi candan ayıran,
Əzrayılın işini,
Onun haqq gərdişini,
Kim edib əqlə əta
Ki, cahan yasa bata?
Dağılan yurdlara bax,
Ulayan qurdlara bax,
Gözlərin yaşı dəniz,
Saralır böylə bəniz.
Uçur haqqın sarayı,
Canın dildə harayı..!
Arar şeytanı gözü,
Şeytan insanın özü?!…

19.10.1998

## YER ÜZÜNÜ ƏHRİMƏNİ

Ey erməni, ey başkəsən,
İblis, şeytan, söylə nəsən?
Yer üzünün Əhriməni,
Ey fitnəkar, qəddar, cani!
Tökdüyün qan yetmədimi?
Bu qırğınlar bitmədimi?
Torpağımda dövlət saldın,
Yurdlarımı bir-bir aldın,
İrəvandan ağzında dad,
Sən Qafqazın özündə yad!
Nahaq qanlar tökdüyün bəs,
Ayaq tutar şər yeriməz.
Ərəb gəldi yaltaqlandın,
Hiylə oldu yalnız andın.
O xaçpərəst Albanyanın,
Yox eylədin adın, sanın.
Ulumuza qan utdurdun,
Tarixini unutdurdun.
Hey qan tökdün, hey ev yıxdın,
İsaya da xain çıxdın!
Hanı alban əlifbası?
Yerdə qalıb yurd qisası.
Məbədlərin qamarladın,
Məzarların hamarladın,
Arxivini uddun filtək,
Bu dynada bir tifiltək
Onun-bunun qucağında,
Sən yadların ocağında.
Bu cahana səpilmisən,
Hər ölkəyə təpilmisən,
Ağlayırsan elə zar-zar,
Tarixini yalan yazar,

Alimlərin nədən böylə?
Bu fitnələr bitməz öylə?
Zəngəzura şeytan doldu,
Göyçə gölü - Sevan oldu.
Çəkdin yurda sinə dağı,
Qorxaq, naqis, azğın yağı,
Sən hər xalqın düşmənisən,
Hər torpaqda şər dənisən.
Təbiblər də tapmaz çarə,
Ey bəşərə qarayarə!
Ey erməni, ey başkəsən,
Kol dalında asıb, kəsən!
Sən adəmdən yaranmadın.
İnsanlığı heç anmadın,
Yalnız ölüm, qan əndişən,
Yaltaqlanmaq sənin peşən.
Soyun yazıq qiyafəni,
Dünya görsün biryol səni?
İngilisə hey əyildin,
Fransıza çox üyüldün,
Ey rusların oyuncağı,
Fitnə, hiylə, şər qucağı.
Haqqımızı almaq üçün,
Gecə-gündüz yanır için.
Uydurursan yalanları,
Artırısan talanları,
Qarabağda hal qoymadın,
Qapılarda yal qoymadın,
Qafqaz bizim deyə-deyə,
Millətini öyə-öyə,
Hey çapırsan sağa-sola,
Gəlmədin ki, bir dəm yola?
Bir zülümsən bu bəşərə,
Allah bəla versin şərə!
Qan tökməkdən doymadın ki,

Tökməmiş qan qoymadın ki,

Dur hazırlaş son savaşa,

Hiylə, fitnə getməz başa,

Əsir yurdu alasıyıq,

Biz son zəfər çalasıyıq...

Soyun iblis qiyafəni,

Dünya görsün biryol səni?!

31.03.2001.

**DAMĞALAYIRLAR**

Naqislik dünyada dövran sulayır,
Pislik yalquzaqtək qəlb-qəlb ulayır,
Axıdılan qanlar haqqı bulayır,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Pulla həqiqəti satın-alırlar,
Dünyanın boynuna kəmənd salırlar,
İlantək haqq dili qəfil çalırlar,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Yetimtək düzlüyün boynu bükülür,
Yağılar əlində yurdlar sökülür,
Çox yanar ocağa sular tökülür,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Hey dolur, boşalır fitnə-fəsadlar,
Sərvətə, dövlətə, pula həsadlar,
Nala-mıxa döyür qəlbi kəsadlar,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Tamah torbasını salıb boynuna,
Yığır dilənçitək varı qoynuna,
Görən necə dözür fələk oynuna,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Ürəklər, diləklər, məramlar qansız,
Düşünən imkansız, duyan imkansız,
Pislik qan sulayır zaman məkansız,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

İlahi, bəndələr naşükürləşib,

Dünya başdan-başa lap məkirləşib,
Mürvətsiz, insafsız başda əyləşib,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Böyüyün, kiçiyin yeri boş qalıb,
Min bir işgəncələr yurd-yurd baş alıb,
Bu şahmat oynuna Tanrı mat qalıb,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.
21.01.1990/
Zeynalabdin Tağıyev qəsəbəsi

**HAQQ ORDUSU**

Arxamızda Rəbb özüdür,
Xalqın gözü tərəzidir,
Şər namərdin qərəzidir,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu!

Yurdlarımız çox talandı,
Namus, qeyrət xırdalandı,
Xain yurdda daldalandı,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.

Düşmən yansın, qoy qovrulsun,
Ocağları lap sovrulsun,
Mərd əlində xar ovulsun,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.

Tanrı gözü üstünüzdə,
Şər olmasın qəsdinizdə
Yağı vurmaq qəsdiniz də,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.

Tankla, topla yurd darıldı,
Sinəmizə qəm sarıldı,
Düzün bağrı çox yarıldı!
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.

Nərən cəbhə yaracaqdır,
Eli zəfər saracaqdır,
Səni tarix aracaqdır,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.

Ey Şadiman, el savaşda,

Qan gül açıb izdə, daşda,
Hünər yatır vətəndaşda,
Durma, qaldır el-ulusu,
Ey Vətənin haqq ordusu.
24. 06.1992

## SALATIN

Erməni işğalçıları tərəfindən
*vəhşicəsinə öldürülmüş jurnalist*
*Salatın Əsgərovanın müqəddəs*
*ruhuna!*

Ömrünün yaz ağzı min bir diləyin,
Qəfil güllə ilə yandı, Salatın.
Vətənçin alışan, yanan ürəyin,
Tomrisin yolunu andı, Salatın.

Cəllad Kir ürəkli azğın yağılar,
Ana fəryadından yanıb dağılar,
Dolaşdı yurdunu yenə ağılar…
Sitəmdən fələk də dondu, Salatın.

Mərdliyin bir tarix o qansızlara,
Yurduna göz dikən imansızlara,
Qanunlar önündə divansızlara
Hünərin bir məzar yondu, Salatın.

Ölümün qəhqəhə kol pusanlara,
Haqqı nahaq bilib mil susanlara,
Gözü görə-görə kor insanlara
Bu qan min il keçsə qandı, Salatın.

Bir igid ər kimi keçdin mərd candan,
Yağdı yağış kimi güllə hər yandan,
Ruhun uçdu getdi haqsız zamandan
Haqqın dərgahına qondu, Salatın.

Balan ana deyib yolları haylar,
Ağı deyə-deyə ağlayar aylar,
Gəzsə də Vətəni ölümlər, vaylar,
Nə qanun, nə hököm qandı, Salatın.

Ana məmləkətin, ey cəsur qızı,
Ağlar yurdumuzun kamanı, sazı,
Yağının püşkünə çıxsın bu yazı,
Əliylə biçdiyi dondu Salatın.

Əyilməz aslanlar yetiribdi el,
Əssə də nə qədər güclü qara yel,

Birləşən amallar bir gün çılğın sel…
Yıxacaq bərəni, bəndi, Salatın.

Ey ruhu müqəddəs, ey şəhid bacı,
Ölümün nə qədər olsa da acı,
Pozmarıq, elimin başının tacı,
Qanınla yazdığın andı, Salatın.

7-10.03.1991

## ÇİNGİZ

*Telejurnalist, Milli Qəhrəman*
*Çingiz Mustafayevin*
*müqəddəs ruhuna!*

Yağı gülləsiylə köksün oxlandı,
Susdu həyatının sabahı, Çingiz.
Vicdanın qeyrətə çox arxalandı,
Dolaşdı sinəni el ahı, Çingiz.

Göylərə saplandı yurd harayları,
Qan ilə boyadı axan çayları,
Şəhid oğulların ruhu-vayları…
Ağlatdı Tanrını, Allahı, Çingiz.

Gördün analarda əyilən qəddi,
Duydun imansızlar aşıbdı həddi,
Ekranın gücüylə uçurtdun səddi,
Oldun həqiqətin pənahı, Çingiz!

Xocalı dəhşətin aləmə yaydın!
Batan səsimizə Tanrıdan haydın,
Saldın kamerana qırğını aydın,
Faş oldu qanların ürcahı, Çingiz.

Ərzə bəyan etdin cinayətləri,
Şəri ifşa edən-xəyanətləri,
Çəkdin meyidləri-qiyamətləri-
Oldu bu dünyanın səyyahı, Çingiz.

Dəydi torpağına, dağ-daşına qan,
Çökdü kameranın yaddaşına qan,
Döndü bəbəyində göz yaşına qan-
Daşdı şəhid dolu siyahı, Çingiz.

Zülüm hədd aşanda şər dövran edər,
Müsibət tutmadı nə çəki, qədər,
Eylədi  könlünü tamam dərbədər,
O qanlı harayın eyvahı, Çingiz!

Qaldı yollarında gülüzlü nigar…
Qoydun Vətəninə oğul yadigar,
Düşdü Məcnun yarın Leylisi ögar,

Ağladı muğamın segahı, Çingiz.

Sən ər oğlu idin Azərbaycanın,
Haqqa qurban getdi növrəstə canın,
Yerdə qalmayacaq tökülən qanın…
Nə qanlı savaşın günahı, Çingiz.
3.05.1993// Pirallahı

## ŞƏHİDLƏR XİYABANI

Əsarətinə üsyan dünyanın qəm adası,
Nakam olmuş canların şəhid ruhlar odası,
Zəncirləri qırılmış Vətənin qan-qadası,
Şəhidlər Xiyabanı!

Gözü yaşlı analar saçın yolur ah ilə,
Məmləkət üsyan edir qul olmuş sabah ilə,
Allah necə barışır bu suç, bu günah ilə?…
Şəhidlər Xiyabanı!

Xonçası qara geymiş igidin yas ocağı,
Cocuğu gözü yaşlı gəlinlərin qucağı,
Əli qanlı cəlladın min illik umacağı…
Şəhidlər Xiyabanı!

Diləkləri, amacı sinəsində boğulmuş,
Onsəkkizdən bu yana iki dəfə doğulmuş,
Öz halal torpağında, öz qanıyla yoğrulmuş,
Şəhidlər Xiyabanı!

Görməyib səyyarəmiz bu cürə sitəm, zülüm,
Lay-divar igidlərin sinəsi dilim-dilim,
İlahidən xəbərsiz yazılmış savaş, ölüm,
Şəhidlər Xiyabanı!

Gözüyaşlı körpələr ata yoluna baxar,
Rüzgar da qan-qadadan ərzi yandırıb yaxar,
Selmi, sumu bədənlər hər gün qoynuna axar?
Şəhidlər Xiyabanı!

Sonu olacaq görən bu tökülən qanların?
Şəhidlik ünvanına yazılan cavanların,
Allah hesabın çəksin qoy sonsuz divanların!
Şəhidlər Xiyabanı!

İçimdə vulkan olan, ərzi tutan acısan,
Yağı gülləsinə tuş sən qardaş, sən bacısan,
Özünü danan xalqın tək mənlik əlacısan-
Şəhidlər Xiyabanı!

Anaların köksünə dağ basma, özü közdü,
Yetər, daha məmləkət qanlı işğala dözdü!

Millət qul ola-ola öz canından əl üzdü,
Şəhidlər Xiyabanı!

Qərənfili matəmə boyanmış bəy məzarı,
Ağlayır sinələrdə ürəklər zarı-zarı,
Qəbirləri qucaqlar gəlin, ana, qız, qarı,
Şəhidlər Xiyabanı!

Nə vaxt sona yetəcək, ay Allah, bu müşküllər?
Lay-lay balam deməkdən qabar çalıbdı dillər…
Ağı deyir ağlayır bağçamızda da güllər…
Şəhidlər Xiyabanı!

Ey millətin istiqlal dünyasının günəşi,
Məzarlara sığınmış nakam ruhların nə'şi,
Min yerə parçalanmış zəncirlərin atəşi-
Şəhidlər xiyabanı!

Sən nəhirlər ağladan ölkənin qibləgahı,
Qocadan cocuğadək hər evin səcdəgahı,
Dikiləcək min illər fələyə ana ahı…
Şəhidlər xiyabanı!

Şadiman ölsə bir gün ruhu səcdəyə gələr,
Başdaşından dünyaya ömürlük ah yüksələr,
Məzar-məzar önündə tənim doğulub ölər-
Şəhidlər Xiyabanı!
Şəhidlər Xiyabanı!
4-5.06.1994

## QİSASA ÇAĞIRIR

Bizə ölmək olmaz, ey soydaşlarım,
Analar, bacılar, qan qardaşlarım,
Quru gözlərimdən axan yaşlarım,
Batıb əsirlikdə solanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Uşaqdan böyüyə ağlamaq yetər,
Özgəyə ümidlər bağlamaq yetər,
Bəsdi, sinəmizi dağlamaq yetər,
Son qoyun bu yurddan olanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Bunu Pənahabad sarayı deyir,
Şuşanın o əsir harayı deyir,
Xocalıdan qopan el vayı deyir,
Batmalı qırğını salanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Harınlar kazino küncündə kişi,
Qumarda uduzmaq, udmaqdı işi,

Aslan ki, aslandı erkək ya dişi,
Batmasın saçını yolanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Ana övladına eyləyər ərki,
Basılsaq bu yurdun başına sərki,
Hər doğulan oğul sayılmaz ər ki,
Son qoysun ürəyi talanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Qurtul, anam, bacım, o göz yaşından,
Qara örtüyünü götür başından,
Silah al oğlundan, hərb qardaşından,
Düşsün yurd-yüvana dolanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Qana-qan olmalı ürəyimizdə,
Şir gücü bükülməz biləyimizdə,
Savaş! Savaş! Savaş! Diləyimizdə,
Batsın Qarabağı alanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

İşğala məruzuq dərd-sərimiz var,
Cavanşir qüdrətli çox ərimiz var,
Məmməd Əmin təki öndərimiz var,
Qoy düşsün min hava çalanlar yasa,
Qisasa çağırır Vətən, qisasa!

Bizə məğlub deyir hər yoldan ötən,
Çox meydan oxuyur hər gəda, yetən,
İnsana şirindir canından Vətən!
Qartal hünərini bilsin yarasa,
Qisasa çağırır Vətən, qisasa!

Qadın, yaddaşını səslə dadına,
Həcəri, Tomrisi gətir yadına,
Ağlamaq yaraşmaz indi adına,
O əllər yağını boğazdan asa,
Qisasa çağırır Vətən, qisasa!

Bu namus savaşı, bu qan savaşı,
Ayağa düşməli erməni başı,
Ey yurdun qeyrətli, ər vətəndaşı,
Nərə çək, nərəndən yağı qan qusa,
Qisasa çağırır Vətən, qisasa!

Ləkəli namusu qanla yuyarlar,
Namussuz olanın bağrın oyarlar,
Qan alsaq dünyada bizi sayarlar!
Qorxağı kim duya, kim qulaq asa?
Qisasa çağırır Vətən, qisasa!

Şadiman, silahlan, dön silahdaşa,
O əsgər papağı şərəfdi başa,
Güllə ürəyinə dəysə də yaşa…
Qoyma, bu torpağı erməni basa,
Qisasa çağırır Vətən, qisasa!
Qisasa çağırır Vətən, qisasa!
26.02.1998

**ƏLƏMİN ÖMÜRÜ ZAMANDAN UZUN**

Ələmin ömürü zamandan uzun,
Onu talelərə yazan kim oldu?
Çoxu qəmlə dolu bəxt yolumuzun,
Bu yolda yorulub azan kim oldu?

Hər günün acısı ürəyə zəhər,
Yapışar boğazdan ikəlli qəhər,
Qəlb dərdə düşəndə qəm verər bəhər,
Ona öz könlünü qızan kim oldu?

Bədəndən ayrılıb uçduqca hər can,
Dondu damarlarda dövran edən qan,
Ölüm ayağında şirin ikən an…
Bir çarə arayıb, yozan kim oldu?

Hər insan dünyanın bir gülüstanı,
Payızı yetəndə solar bostanı,
Bütöv bir bəşərin ömür dastanı-
Qaldı sinələrdə, ozan kim oldu?

Bəşər bir-birinə yağıdır nədən?
Torpaq, ölənlərlə dolukən mədən,
Köçəndə bir parça yerindi bədən-
Ona gec məzarı qazan kim oldu?

Şadiman fələyin önündə sail,
O qoyduğu yola gedənlər qail,
Verdiyi əmrə Əzrayıl nail…
Onun fərmanı pozan kim oldu?
20-21.10.1998

**GÖZLƏMƏ**

Naqisdən doğruluq, namərddən düzlük,
Özünü sevəndən peyman gözləmə.
İkiüzlü adamdan saflıq, təmizlik,
Yolundan azandan iman gözləmə.

Çox «mənəm» deyənlər özündən dedi,
Min-min günahsızın başını yedi,
Özgə əməyilə zərxara geydi –
Əyri əməllərə zaman gözləmə.

Kişilər az gəlib qoca dünyaya,
Qanmazlar qananı verib fənaya,
Çox dil pəhləvanı yetərək «haya»,
Başına ələyər duman, gözləmə.

Özündən razılar tutub dünyanı,
Bir qara qəpiyə satıb dünyanı,
Alovun köksünə atıb dünyanı,
Vicdanı yoxsuldan, aman, gözləmə.

Düzlükdən danışdı çox kələkbazlar,
Ağıl da öyrətdi ağlıdayazlar,
Suyun çirkabına baş vurar qazlar,
«Düzəm», deyəndən qaç, yaman gözləmə.

Çox əyri əllərdə söndü min ocaq,
Çox tale, çox ürək oldu oyuncaq,
Dost əli sinənə saplasa bıçaq…
Döz ağrı-acına, dərman gözləmə.

Şirin, sən boşalıb-dolma buludtək,
Bəmdə haray çəkmə, yanıqlı udtək,
Ömrün tufanına döz bir palıdtək…
Yaxşıya baş endir, fərman gözləmə!
19.10.1989

**OĞRU**

Bəşər oğurluqla məşğul dünyada,
Bir gündə səbəbdi min bir fəryada.
Biri, rüşvət alıb, hər gün cib soyur,
Neçə imkansızın ürəyin oyur.
Kiminə oğurluq gündəlik peşə,
Çəkir zənginlərin ürəyin şişə.
Kimi bir özgənin yığdığı varı,
Dədəmalı təki, eyləyir yarı.
Kimi könüllərdən közü oğurlar,
Kimi bir misrayçın sözü oğurlar,
Kimi sinələrdən ürək oğurlar,
Kimi fırıldaqdan kələk oğurlar.
Kimi ocağından külü oğurlar.
Kimi də bağından gülü oğurlar.

Bəşər bir-birini soymaqla məşğul,
Ayağının altın oymaqla məşğul.
Kimi şan-şöhrətə ucalmaq üçün,
Gecələr yatmayır çeynəyir için.
Mininə alçalsın, qul olsun nə qəm?
Yalançı şöhrətdən təki olsun dəm.
Çoxu mənliyini verdi şərəfə,
Kiminsə önündə çökdü min dəfə.
Çox vaxt ucalmaqçın yandıran qəlbin,
Görmür yıxılanda dərənin dibin.
Kimi özgəsinin məhəbbətini,
Müqəddəs, ilahi səadətini,
Sanki iblis təki keçirtdi ələ,
Qurdu bir bədbəxtin eşqinə tələ.
Kim xəstə ruhuna dad oğurlayır.
Kimi də özünə ad oğurlayır.
Hamı oğurluqla məşğul dünyada,
Lakin, gətirmirik bircə an yada,
Bizdən yuxarıda Allahımız var,
Bilmirik heç neçə sabahamız var...
Tanrının Əzrayıl bir mələyi var,
Ona da oğurluq İlahidən yar.
Hər şeyin oğrusu olan insanın,
Bir gün o əzrayıl oğurlar canın!...

4.02.2001.

**DƏRD**

Elə doğulandan giririk dərdə,
Gah mərdə dönürük, gah da namərdə,
Dərd yıxır, dağidır dirəyimizi,
O yeyir icərdən ürəyimizi.
Dünyada hər şeyin səbəbi dərddi,
Bəşər qarşısında səddi, sərhəddi.
Hərə öz dərdindən əriyir şam tək,
Alır sinələri o bir axşam tək.

Varlının canını qorumağ dərdi,
Yığdığin birbəbir arımağ dərdi.
Qızın ər evində yarımağ dərdi,
Ya ata evində qarımağ dərdi.
Oglanın ev dərdi, pul-para dərdi...
Ürəyə vurulan hər yara dərdi.
Çoxunun şan-şərəf, ucalmağ dərdi,
Şöhrətə çatanda qocalmağ dərdi.
Atanın, ananın övlad vəfası,
Böyütmək, yerbəyer etmək cafası.
Övladın ataya, anaya borcu,
Bu  bağlılığların görünmür ucu....
Bəxtinə səadət gətirmək dərdi,
Sonradan onu da itirmək dərdi.
Dərdlər xırda-xırda, dərdlər birbəbir,
Bizi yrəyindən keçirən xəlbir.
İşqal altda olan torpagin dərdi,
Yağıya alçalmış papağın dərdi.
Dildən  məcbur çıxan yalanın dərdi,
Haqqı misqal-misqal talanın dərdi,
Dünyanı dolaşan zülmlər dərdi,
Vaxtı bilinməyən ölümlər dərdi.
Ev dərdi, iş dərdi, çay-çörək dərdi,
Həyat axınında bir dirək dərdi,
Çox vaxt başımızın boy atıb dərdi,
İçdə çiçəkləyən ümidi dərdi.
Tapa bilərsizmi dərdsiz bir ürək,
Onu da xəlbəti əyməsin fələk?
Dərdlər sinəmizi tapır sel təki,
Sonra  da orada çapır yel təki,
Dönür içimizdə, sanki fəryada,
Yandırır ürəyi, sinəni oda,
Zəngin də,  kasıb da onun əsiri,
Bəlkə o Allahın açılmaz sirri,
Verdi ömürləri büsbütün bada,

Heç dərddən qurtulan varmı dünyada?!

30-/31.01.2001.

**DÜNYA ŞEYTAN İÇİNDƏ**

Ərşi-kürşü ram edən,
Acılarla kam edən,
Qəlbə dərdi dam edən,
Bədənlərlə şam edən,
Zalımlar can biçində,
Dünya şeytan içində.

Yıxılıb haqq guşəsi,
Kəsir nahaqq tişəsi,
Sınır ürək şüşəsi,
Artır iblis nəş'əsi,
Hamı niyə, neçində?
Dünya şeytan içində.

Yerdən göyə fəryaddı,
Can bədəninə yaddı,
Ağızlarda imdaddı,
Şər hər işdə abaddı,
Bəşər köçə-köçündə
Dünya şeytan içində.

Can üzülür ah ilən,
Vicdanlar günah ilən,
İllətlər sabah ilən,
Beyinlər gah-gah ilən,
Zaman keçə-keçində,
Dünya şeytan içində.

Rəbbim bizi yaratdı,
Canı bədənə atdı,
Vəhləri ağla qatdı,
Ondan kitab ucaltdı,
İmtahanı həyatdı!
Varı olan heçində,
Dünya şeytan içində.

İnsan qocalır niyə?…
Əllər uzanıb göyə,
Başına döyə-döyə,
Əzrayıl gəlir iyə,
Fələk seçə-seçində,
Dünya şeytan içində.

Şadiman, adəm yolu,
Fitnə-feyillə dolu,

Bağlanıb haqqın qolu,
Zaman bilmir sağ-solu,
Qanlar içə-içində,
Dünya şeytan içində.
30. X. 2003

**BU DÜNYA QƏM ÇEŞMƏSİ**

Hər taleyə bir ömür, hər ömrə bir həyat var,
İnsanın ağılında açılmaz neçə qat var,
Şüurun fəqanından ürəkdə min cür çat var,
Bir tərəfdə göz yaşı, bir tərəfdə büsat var…
Ağrılara qul oldun - taleyin yatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sabahın naləsinə gecənin ahı-zarı,
Hiylədən hiylə doğur bu insanlıq bazarı…
Hər beyində açılmaz haqqın müdrik gülzarı,
Bəşərin əməlinə layiqdi öz məzarı,
Bədən canın libası, libasın atıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Hər ağrının öz ahı, hər ahın min fəryadı,
Dildə boğulur qalır ürəklərin imdadı,
İnsana rövnəq verir gözəl həyatın dadı,
Göz qızır, ağıl çaşır, unudulur Rəbb adı,
Ölən ömrün əzabın belinə çatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Hər duyğunun baharı, hər baharda qış olur,
Allah xofu olmayan sinə, ürək daş olur
Ağıldan nalə qopur göz içində yaş olur,
Fitnəyə rəvac verən iblisə qardaş olur,
Qəlbində şeytan olan aləmi qatıb gedir.
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Ağrılara əyilən əzabların quludu,
Doğulanın həyatı bir imtahan yoludu,
Ömrümüz keşməkeşlə, fəqanlarla doludu,
Boynumuza sarılan mələklərin qoludu,
Hansı doğulan insan tam kama çatıb gedir ?!…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sitəmlərin içində min agrı, min acı var,
Hər doğulan bəndənin pak olmaq əlacı var,
Cahanın başı üstə Rəbbin şahlıq tacı var,
Könlü odda qovuran iblisin şər sacı var,
Diləkləri sinədə fitnəyə satıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

İnsanın vaxt açarı fələyin boğçasında,

Bahar payıza tacdı ömürün bağçasında,
Canımızın rəfi var, Yaradan taxçasında,
Dil divara çalınır haqq-hesab mıxçasında,
Zaman ömur atını dalınca dartıb gedir…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.
17. X1. 2003

## ERMƏNİ FİTVASINI DÜNYAYA FAŞ EYLƏMİSƏN

*“ Ermənistan terrorçu “ Xristian” ölkənin gizlinləri “ kitabının müəllifi Səmyuel A. Uimz əsli şotland – amerkalıdır. Bu kitabı Amerkada çap etdirəndən bir ay sonra müəmmalı şəkildə vəfat edib. Bu şeri onun ruhuna minnətdarlıq hissiylə həsr edirəm!*

Əsli şotland, dini xaç, alimi hünər oldu,
Yazdığı bu kitabla dünyaya bir ər oldu,
Həqiqət aşiqi olmaq da dərdi-sər oldu,
Bəşəri – könlü ilə necə dərbədər oldu,
Qəlbimi oda salıb, ğözümü yaş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Sənin Amerikada cahi-cəlalın var idi,
Vicdanı haray çəkən əcəbcə halın var idi,
Xeyri, həqqi düşünən yaxşı kamalın var idi,
Üzünün nuru–cünəş, kişi cəmalın var idi,
Bizə şər söyləyənin başına daş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Sən bizim ağrımızı çəkdin ürəkdən, eyvah,
Doğulan bu kitabın gəldi diləkdən, eyvah,
Erməni şərdi tamam, çünki bələkdən, eyvah,
Sənə rəhmət deyirəm mən ki, fələkdən, eyvah,
İki yüz illik zülümü dərdlərə baş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Açdıqca səhfələri sinəmi ah-vay tutdu,
Könlümün vulkanını gör necə də hay tutdu,
Gözümün gurşadını həm bulaq, həm çay tutdu,
Qələmin Allahına yaxşı haqqı-say tutdu,
Şəri bəşərə – bəla, içini boş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Həqqə çaldın qələmi, bəs ölümün gəldi niyə?
Pisə lənət oxuyan, ya Rəbbim, öldü niyə?
Dünyanı bu fələyim xeyrə-şərə böldü niyə?
Nahaq qanlar tökülür, hər tərəfdə göldü niyə?
Ərzi gəzən yalanı göz üstə qaş eyləmisən,

Erməni fitvasını dünyaya faş eyləmisən.

Qanı bizdən olanın çoxları xoş can qoruyur,
Evinin içini və birdə ki, boş şan qoruyur,
Gizləyir soy-kökünü, ömrə düşən an qoruyur,
Erməni adıyla əcnəbidə san qoruyur…
Bəşəri qeyrətini zinətə qaş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Şadiman müəmmalı ölmünə hiddət eləyir,
Qələmi düzə çalan ağlına qüdrət eləyir,
Ruhuna səcdə edir, xeyrə ibadət eləyir,
Ümidin həqqi güdən Allahına qət eləyir…
Dödağımda alışan min cürə kaş eyləmisən!
Erməni fitvasını dünyaya faş eyləmisən.
Erməni fitvasını dünyaya faş eyləmisən.
19. 05. 2004

## BAYRAĞIM

Həsrət ilə xəyallarda alışdığım, yandığım,
Gecə-gündüz min hicr ilə məhəbbətlə andığım,
Vüsalını uyğularda cəfalarla sandığım,
Fırtınalı nəhrlərtək coşub-daşan bayrağım,
O əzablı tale ilə qardaşlaşan bayrağım.

Başın üstən fəlakətlər əsib keçdi yel kimi,
Qabarman da, çəkilmən də dağdan aşan sel kimi,
Taleyin də dərdli imiş bu bəlalı el kimi,
İldırımlar başın üstən çaxıb keçdi, bayrağım,
Bəxt ulduzu göylərindən axıb keçdi, bayrağım.

Yetmiş ildə yağıların əyib bükdü belini,
O əzablı hekayətin yandırdıqca elini,
Bağladılar min bir yerdən qıfıl ilə dilini…
Haqq, ədalət döyülsə də bükülmədi, bayrağım,
Millət qanı nahaq yerə tökülmədi, bayrağım.

Ey üç rəngli ay-ulduzum, məhbus eldə doğuldun,
Fitnələrlə, fitvalarla qara əldə boğuldun,
Fəzilətdən, həqiqətdən, istiqlaldan  yoğruldun,
Parla şərəf dünyasında al günəştək, bayrağım,
Dol bu təşnə ürəklərə bir atəştək, bayrağım.

Haqsızlığı dolu təki döydün qəfil gəlişlə,
Lənətlədin məhbusluğu üsyankar yüksəlişlə,
Yıxıb-sökdün əsarəti sən mərdanə gəlişlə,
Od yurduna Tanrı oldun şövqün ilə, bayrağım,
Ən şiş zirvə yuvan olsun fövqün ilə, bayrağım!

Məmməd Əmin səmasında doğan parlaq planet,
Sən dalğalan nəhr kimi yetmiş illik kama yet,
Aç azadlıq qapısıını elləri bəxtəvər et,
Gəl, bu dərdli yurdumuzda yıx qəfəsi, bayrağım,
Qoy hayqırsın şimşək təki haqqın səsi, bayrağım.

Yasaq oldun yağı əllə doğulandan dünyada,
Başın üstə kölgələndi haqdan xəbərsiz qada,
Tanrıdamı gücsüz oldu yetişmədi fəryada.
Sən idrakıın bəxş etdiyi mükafatsan, bayrağım,
Sinələrdə üsyan edən hekayətsən, bayrağım.

Tapdalandı yurdun haqqı, millət qalxdı savaşa,
Xəyanətkar əllər ilə oxun dəysə də daşa,
Gec də olsa gəl qovuşdur sən qardaşı qardaşa,
Şəhidlər ruhu eşqinə yıx sədləri, bayrağım,
Torpağımı parçalayan sərhədləri, bayrağım.

Aç qapısın istiqlalın alsın nəhri əlinə,
Bir səadət bəxş eləsin Şadimanın elinə,
Yetsin tamarzı əllərim həmişəlik əlinə,
Məğrur çıx bu savaşlardan pələng təki, bayrağım,
Boynumuza həmayil ol çələng təki, bayrağım.
30.10-1.11.1990

## ƏSKİ AZƏRBAYCANIN İYİRMİ SƏKKİZ MAYISAN

Ürəyində dərdləri qubarlanan, bayramım,
Şanlı istiqlal eşqi qamarlanan, bayramım,
İzi-tozu silinib hamarlanan, bayramım,
Bir millətin Tanrıya ucalan ah-vayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

O böyük məmləkətin qazanılan yoluydun,
Əsir, kölə millətin açılmış əl-qoluydun,
Sildilər yaddaşlardan... tarixəsə uluydun,
Dədəm Oğuz bəyinin, sən bozqurd harayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Yetmiş il dilimizdən aldılar bu kəlməni,
Vətən bayram eylədi yağı eldən gəlməni,
Şeir nədir, xalça da işlədi bu ilməni,
Parçalanmış ölkənin qanlı Araz çayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Sən ey Məmməd Əminin ən qeyrətli balası,
Azəri türklərinin Dədə Qorqud qalası,
İstiqlal savaşında Vətən haqqı alası,
Aylara rövnəq verən əsrmizin ayısan,

Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Doğuldun onsəkkizin o daşnak davasında,
Boğuldun imperyanın əjdaha yuvasında,
İyirmi səkkiz aprelin qırmızı havasında,
Topxanası dağılmış, zəncir qırmış ayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

O iyirmi üç fevral xalqa kölə dügünü,
Bizə bayram dedilər, ərlərə bəxşiş günü,
Düşünən beyinlərə yeritdilər süngünü…
Bəxtiqara Cavidin, Müşfiqin haqq payısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Gəl, şəhid olmuşların qanını hifz eylə,
Fəda olanlarının canını hifz eylə,
Əsir Qarabağının anını hifz eylə,
Üçrəngli kəhkəşanın ayparası, ayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Əldən getmiş Kəlbəcər, Laçın əsir yağıda,
Qız-gəlin nalələri parçalayır dağı da,
Bu savaş meydanını dəli nərən dağıda!
Sən əzilən millətin ikiyüzillik hayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Yenə də qalxıb daşnak istiqlalı boğmağa,
İmperya hamilədir köləliyi doğmağa,
Yuxulu məmləkəti inək təki sağmağa,
Çox millətli bir yurdun oxdan çıxan yayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Qolu dibdən vurulmuş Babəkini yad eylə,
Qətrə-qətrə soyulmuş Nəsimini ad eylə,
Dünyaya lərzə salan bir dəli fəryad eylə,
Məzarı bəy otağı şəhidlərin sayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Təbrizimin gözləri qoy yollardan çəkilsin,
Sərhəd deyilən yerə gül-çiçəklər əkilsin,
Çılğın sevinc yaşları xan Araza tökülsün…
Sən böyük bir millətin o tayı, bu tayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Bu Şadiman ağlının külünü köz eyləyir,
Könlünün qubarını vərəqlərə söyləyir,
İstiqlalsız bu kölə məmləkəti neyləyir?
Azəri xalqlarının azadlıq sarayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

23.05.1993

## BAŞBİLƏNLƏRİMİZƏ

Kürsüsünə sığınıb pulun, malın öyənlər,
Millətin daş-qaşıyla üst-başın bürüyənlər,
Günahsız bəndələri savaşa sürüyənlər,
Cocuqların ürəyi yağı cibində dollar,
Əsirlikdə qız-gəlin bağlı qalıbdı yollar.

Erməni cəlladının dilinə aldanmayın,
Namus ayaqlar altda kişilikdən sanmayın,
Ac-yalavac kütləni bir belə də danmayın,
Körpələrin fəqanı ərşin bağrına bıçaq,
Bəsdir qara camaat əlinizdə oyuncaq!

Əcaba, kürsü-kürsü yabançı çəkişmələr,
Dildə xalqı aldadıb ürəkdə dəyişmələr,
Yağıya əl uzadıb bu üzdə döyüşmələr,
Töküldü millət qanı axdı oldu min dəniz,
Bu şərəfsiz həyatdan böylə utanmazmı üz?

Nədir belə didişmə, ölkədə hal qoymadız?
Bu tökülənlər yetər, tökdükcə qan doymadız,
«Xalq» dedikcə ucaldız, xalqı bir yol duymadız,
Dəbdəbəli imarət, daş-qaş, bol-bol pul-para,
Millətin boynu bükük, millətin köksü yara.

Hanı oğullarınız, gizlənib dər-deşikdə?
Yaşları çox uşaqlar uyuyurlar beşikdə,
El-oba qan içində girlənirlər eşikdə,
Xalqın qoç igidləri şəhid olur torpağa,
Bəzəkli maşınlarda çapırsınız sol-sağa.

«Xalqım, elim» deyənlər isti yataqda yatır,
Erməni körpəmizin ciyərin pula satır,
İlahidən törəməz, artmaz dünyada qatır!
Ey «Vətənim» deyənlər, əlacsız müşkülümüz,
Artdı, çoxaldı, ya Rəb, gündən-günə ölümüz.

İşğalda eli olan bu havanı qoxlamaz,
Qan içində məmləkət xoş günə can saxlamaz,
Güllələr tuş sinəyə, cənablar, göz yuxlamaz,
Yorulduq bu dərdlərin əlacın gözləməkdən,
Boğazlara güc verib hələ hey sözləməkdən.

Şah Xətayi savaşda qılınc çaldı bir zaman,
Bizim Milli Məclis də dilə güc verir yaman,
Ərşə dikəlib, fəqət, bu səfalət ah, aman,
Yumşaq kürsüdən qalxın, kişilər, qeyrət dəmi,
Qurtuluşun yolunda yalnız çalın qələmi!

Bunu sizə yaralı hər ana ahı deyir,

Əsirlikdə çürüyən xalqın günahı deyir,
Azərbaycanın ölüm-qalım sabahı deyir,
Atın umu-küsünü, birləşin bir sırada,
Qırılır xalq kütləsi milçək təki arada.

Torpaq gedəndən sonra sizə kürsü nə lazım?!
Sönüb elin günəşi, qışa dönübdü yazım,
Bu amansız qırğını kağıza necə yazım?!
Əldən getdi məmləkət, sarılın silahlara,
Qayıdın meyxanadan, dönün qibləgahlara.

Ağlayan gözlərindən yaş tökülür Vətənin,
Öz əliylə başına daş tökülür Vətənin,
Ayıl, kişi, yuxudan, bax sökülür Vətənin,
Dağılın kürsülərdən, səngərdə məclis qurun,
Birləşən əlinizlə düşmənin başın vurun.

Bacı, ana namusu erməni yatağında,
Gəlinlər qara geyib gəlinlik otağında,
Məşvərət kimə lazım ölkənin bu çağında?
Güc görməsə yağılar, aldığından dönərmi?
Kişi ölər, öldürər ayaqlara enərmi?

Düz ikiyüz il öncə el o tay, bu tay oldu,
Şuşa, laçın, Kəlbəcər Zəngəzura tay oldu,
Yurdun başbilənləri niyə belə zay oldu?
Dilindən Şadimanı çəkin bugündən dara,
Öldüm, Allahım, yetər, bu yol gedir de hara?…
5-6. 06. 1994

**BİZİ ÖZÜMÜZƏ QAYTARAN OLA**

İçimdə alışan şamdı ürəyim,
Dərdlərin əlindən damdı ürəyim,
Bu necə murazdı, kamdı ürəyim?
Gəlsin Şah İsmayıl, Qacar bu hala,
Bizi özümüzə qaytaran ola.

Ana ətəyində gizlənən oğul,
Addımı gəlintək izlənən oğul,
Külək nə, mehdən də gözlənən oğul,
Doğulduğun evmi qeyrətə qala?
Bizi özümüzə qaytaran ola.

Kişi at belində əlində qılınc,
Başının altına qız qoyar balınc,
Utanır gözəllər-Sevda, Gül, Narınc…
Oğul dediyimiz Vətənə bəla,
Bizi özümüzə qaytaran ola.

Donub damarlarda qeyrətin qanı,

Necə miskin edib Azərbaycanı?
Hanı Cavanşirin, Babəkin canı?
Qoymasın bir ana gözləri dola,
Bizi özümüzə qaytaran ola.

Pulsuzlar gedirlər cəbhə xəttinə,
Vətənin yaralı qan sərhəddinə,
Nə oldu oğulun kişi qəddinə?
Ürək necə gedir qeyrətlə yola?
Bizi özümüzə qaytaran ola.

Niyə içimizdə namus əzildi?
Niyə bu Vətəndən belə bezildi?
Hünər kəndirimiz əldən üzüldü,
Allah içimizdən qorxunu ala,
Bizi özümüzə qaytaran ola.

Yağının hələ də vayı olmayıb,
Xain ermənin tayı olmayıb,
Heç kəsə düşməndən dayı olmayıb,
Allah nizamlasın bizi haqq yola,
Bizi özümüzə qaytaran ola.

Şadiman, çoxları qul olub vara,
Vətənin köksünə vurubdu yara,
Çəkilsin satqınlar, xainlər dara,
İblis ürəklilər payıztək sola,
Yaradan bizi də düz yola sala,
Bizi özümüzə qaytaran ola,
Bizi özümüzə qaytaran ola.
09.11.1997

**QURANDA ŞAİRLƏR HAQQINDA AYƏ**

Şairlər surəsi şəfəqdi ayə,
İki yüz iyirmi yeddi ayəbəayə.

Quranda şairlər haqqında ayə,
Deyir haqq yolunda düşsən də vayə,
Əgər salmasalar sözünü sayə,
Zənn etmə gedibdi əməyin zayə,
Ol, düzlük yolunda sağ ikən dayə,
Axsa da göz yaşın dönsə də çayə,
Yetişər çaldığın qələmin hayə,
Mən sənə vermişəm ilhamı qayə,
Eylə ömrün boyu haqqı himayə!
Əyrini vəsf edən şeytandır, ayə,
Şərdən yoğrulubdu kökündə mayə!
Səvabı, günahı vur günə, ayə,
O haqq dünyan üçün dönəcək sayə,
Yükləmə günahı belinə tayə,

Yüklədin nə qalar səndən dünyayə?!
Şadiman, dönübdü qəm oxa, yayə,
Haray sal ahını aləmə yayə!
Saldığın harayın tutar daş-qayə,
Dirikən zavallı, yetiş ah-vayə!

06.12.2006 Pirallahı

**SƏLAM OLSUN**

Bu dünyanın hər üzünü
Görənlərə səlam olsun.
Qatlayanda şər dizini
Ərənlərə səlam olsun.

Ala zaman çələyini,
Döyə şərin diləyini,
Hər namərdin biləyini
Gərənlərə səlam olsun.

Heç dönməyə haqq yolundan,
Buxov düşə mərd qolundan,
Həqiqəti öz kolundan
Dərənlərə səlam olsun.

Dərya qopmaz mayağından,
Qəlb düşməsin dayağından,
Şəri dartıb ayağından
Sərənlərə səlam olsun.

Haqq çıxarda səs-səmrini,
Tütyə edən Rəbb əmrini,
Halalliqla öz ömrünü
Sürənlərə salam olsun.

19.02.2000

**YA İLAHİ, ÜRƏYİM QÜSSƏDƏN AL QAN OLDU**

Ya İlahi, ürəyim qüssədən al qan oldu,
Eşq odunda əriyib dərdə düşən can oldu.

Ya İlahi, bu fələk qoymadı bir kama yetəm,
Ciyərim yandı tamam atəşə büryan oldu.

Ya İlahi, yetişən olmadı bir imdadıma.
O səbəbdən də peşəm naləvü-əfqan oldu.

Ya İlahi, sel olub göz yaşım axdı çəmənə,
Güllərin rəngi o üzdən belə əlvan oldu.

Ya İlahi üzü gülmür daha bu Şadimanın,
Etməyib tab fərağa gözü giryan oldu.

06.11.2000

**SƏN EY TUFAN MƏHƏBBƏTİM**

Sən ey tufan məhəbbətim, küləklərtək əs könlümdə,
Qəmin ağrı-acısının telini tap, kəs könlümdə.
Səmalarda buluda dön, yağdır göydən yağışları,
Sinəmdəki əzabların ilmələnsin naxışları.
Dincliyimə həsrət qalsın həyatıma gələn anlar,
Qoy bitməsin sinəmdəki hicran dolu bu divanlar.
Ürəyimi çalxat seltək, dağa-daşa vursun özün,
Kül altdan sovur göyə kirin-kirin yansın közün.
Sən ey tufan məhəbbətim, gözlərimdə yaşı sellət,
Buludlartək dolan könlü qoy üzməsin acı illət.
Zərrə-zərrə, hissə-hissə ağrılarım havalansın,
Dodağımdan qopan səda fələklərə duvalansın.
Şimşəklərtək atəşləri töküm yerin bağrına,
Sən ey tufan məhəbbətim, qoy əriyim ağırına.
Bu inləyən ürəyimin şəfasına dəva umma,
Mən çəkdiyim əzabları bir kimsəyə rəva umma.
Başda əsən ağılımı göy üzündə quşa döndər,
Sinəmdəki qorxuları lal sükütlu daşa döndər.
Duyğulansın saatlarım, sellər təki aşıb-daşsın,
Hissim qonsun sıldırıma qartallartək zirvə aşsın,
Bu hönkürən xiffətimə toxunmasın soyuq baxış,
Toxunarsa gətirəcək sabahıma boranlı qış.
Sən ey tufan məhəbbətim, Allahıma iman elə,
Yerdən, göydən küsən cana təbib olub dərman elə.
Əzablardan qurtularaq fələklərtək nidalaşım,
Əl götürüm bu dünyadan əbədilik vidalaşım.

29.02.2004

**ŞAİR OLANIN RUHUNA QANAD GƏRƏK OLSUN**

Şair olanın ruhuna qanad gərək olsun,
Misrasına, hər sözünə bir dad gərək olsun.

Heç etməyə ilhamını təhqirlərə məruz,
İblisliyə, yaltaqlığa qəlb yad gərək olsun.

Allahı verən fitrətə yar etsin ürəyi,
Ya pərvanə başa, ağlı abad gərək olsun.

İslatmaya kağızını mürəkkəbə əbəs,
İnsanlığa hər könüldə imdad gərək olsun.

Milləti düşəndə dərdü-bəlalara nalan,

Səmalara bülbül təki fəryad gərək olsun.

Tutsun Vətənin şərəfini özündən uca,
Həm xeyrinə, həm seyrinə can şad gərək olsun.

Ey Şadiman misralarının saflığın qoru,
Öləndən sonra yazdığına ad gərək olsun.

02.02.2003

## YANDIRAR SƏNSİZ, EY AFƏT, MƏNİ HİCRAN GECƏLƏR

Yandırar sənsiz, ey afət, məni hicran gecələr,
Ağlasam yaş yerinə gözdən axar qan gecələr.

Qoymaram yastığa baş, ərşə çəkib qəm yuxumu,
Olur ildən də uzun çün mənə hər an gecələr.

Bülbül eşqiydə gülün sübh açılan vaxt oxuyar,
Edirəm sübhə kimi naləvü-əfqan gecələr.

Yetsə kim vəslinə yarın çıxar azədəliyə,
Mənə zindan görünür hər tərəf, hər an gecələr.

Qorxuram əqlimi başdan ala bu tənhalıq,
Gəl həyan ol mənə, ey sevgili canan, gecələr.

Bəxtəvər başına, pərvanə yanıb qurtardı,
Şadiman, şəm-kimi sübhə qədər yan gecələr.

27.02.2001

## BU GECƏ XƏBƏR ET ULDUZLARA SƏN

Bu gecə xəbər et ulduzlara sən,
De ki, ürəyimdən gedib duman, çən.
Yenə könlüm evi çıraqban olub,
İncə duyğularla mehriban olub.
Atəşlə alışıb yanır ürək, can,
Sənin həsrətinə nalan olub an.
Dərdimi deməyə qüdrətim çatmır,
Qəmimi çəkməyə vüs`ətim çatmır.
Urəkdən nə silər bu məlalımı?
Özün yadına sal mənim halımı.
Bu gecə xəbər et, ulduzlar çıxsın,
Mənim atəşimin oduna baxsın.
Sən qəmi verənsən, mən qəmi çəkən,
Səpilsin göylərə ulduzlar erkən.
Yansın inci-inci, yansın şam kimi,
Könlüm cilvələnsin bu axşam kimi.
Hər ulduz taleyin misalı təki,

Sənin surətinin timsalı təki.
Parlasın göylərin sinəsində qoy,
Gecənin zülmətin bu işıqla oy.
Dərdini deməyə həmdəm et məni,
Ya da bu dərdinlə gəlib öt məni!..
Sevdalı gönləri salım örəyə,
Sənin cəmalını alım örəyə.
Oxşasın ruhumu bu gecə yarı,
Gəl birgə yaşadaq əhdi-ilqarı.
Bir sevda gönəşi doğsun başımda,
Batırım aləmi bu göz yaşımda.
Ruhuna qonaq et ruhumu belə,
Mən də bu zülməti vurum qəm ilə.
De ki, ürəyimdən gedib duman, çən,
Bu gecə xəbər et, ulduzlara sən...

17.02.2005

## SURƏTİN AY KİMİ DURUB QARŞIMDA

Surətin ay kimi durub qarşımda...
Həsrətin parlayır bu göz yaşında.
Edir ürəyimə hicranın sitəm,
Çəkilib getməyir könlümdən matəm.
Hər yerdə görürəm xəyalını mən.
Qəlbimin telləri qırılır dən-dən.
Ömrümdən boylanır elə iztirab,
Qalmayıb canımda nə taqət, nə tab.
Bitmir ayrılığın acı möhnəti,
Naləm əyan edir ərşə haləti.
Surətin ay kimi yuxundan baxır,
Bu baxış könlümü yandırıb-yaxır.
Basır yatağımı bu həyacanım,
İsinmir həsrətin oduyla canım.
Ağrılar içində illət boylanır,
Bütün həyatımdan zillət boylanır.
Gecəm sabahıma dərmanə gəlir.
Ay təki surətin fərmanə gəlir.
Yıxır ümidimin sarayin qubar,
Hər ağrı içində bir işgəncə var.
Soyuq məzar kimi üşüyür canım,
Xəyalın önündə əsirdi anım.
Tütyə sevincim də həsrətdən keçir,
Zülmün qədəhindən ruhum qan içir.
Həsrətin parlayır bu göz yaşımda,
Surətin ay kimi durub qarşımda...

18.02.2005

## BU QATAR YAMANCA ŞÜTÜYÜB GEDİR

Bu qatar yamanca şütüyüb gedir,
Qəmimi məktuba büküb aparır.
Özünü mənimtək halbahal edir,
Eşqimin ağzını tikib aparır.

Üzümdən oxuyur həyacanımı,
Özündə ağladır bu hicranımı,
Qoparıb bədəndən şirin canımı,
Bütün ürəyimi söküb aparır.

Bu qatar verməyir anlara aman,
Tələsir mənzilin başına yaman,
Mən ah eləyirəm, ürəyim iman,
Gözümdən yaşımı töküb aparır...

Səhər mürgüsündən çöllər ayrılır,
Çarxlar tıqqıldayır, anlar bayılır,
Qəlbimin fəryadı ərşə yayılır,
Yollara ayrılıq əkib aparır.

Giribdi qəlbimlə əcəb sövdaya,
Qoynunda yer verib niyə sevdaya?
Görmürmü könlümdən qopan nidaya?
Bağrıma qəm dağı çəkib aparır.

Qışın soyuqluğu gəlir səhərdən,
Tutulub boğazı qəmin qəhərdən,
Bütün varlığımı udan zəhərdən,
Anların çiyninə çöküb aparır.

Bu qatar bilmirmi qəm adətimi?!
Alıb əllərimdən məhəbbətimi,
Nə ki, qərib olmuş səadətimi,
Məni də özüylə çəkib aparır...

03.01.2005

## DİDƏRGİN ANA

Nədir belə taleyinə yağan yağışlar?
Qəlb içinə bu ayrılıq saldı naxışlar,
Yağıları ağ saçların dilsiz qarğışlar,
Sinəmizə dağdı bu qəm, didərgin ana,
O dərdinə yanar aləm, didərgin ana.

Yurd-yuvanı atıb gəldin, ağladı ürək,
Faciənə matəm geydi, yandı o fələk,
Boşa çıxdı haqqı-sayın, çox arzu, dilək…
Sən gəlmisən, oban orda, didərgin ana,
Od-ocağın qaldı darda, didərgin ana.

O qabarlı əllərində illər zəhməti,
Yağıların yuva qurdu çirkin niyyəti,
Hər əsirdə kor etdilər pak həqiqəti…
O gözlərin dolan bulud, didərgin ana,
Dilsiz ürək yanıqlı ud, didərgin ana.

Nədir belə içindəki haray, qışqırıq,
Könül sazın susub fəqət, tel qırıq-qırıq…
Sinəndəki o sızıltı, nalə, hıçqırıq,
Kimə qaldı yurd, mahalın, didərgin ana?
Yurda sığmaz qəmli halın, didərgin ana.

Nədir belə gözlərində bu qədər təlaş?
O solğunca yanağında giləlenib yaş,
O ağrılı sinəndəcə asılıbdı daş,
Ünvanını kimlər pozdu, didərgin ana?
Kök-soyunu yağı yozdu, didərgin ana.

Gün gələr ki, həqiqətin müqəddəs səsi,
Qəfil oxtək dəlib keçər o daş qəfəsi,
Üstünüzdən kəsilməsin haqqın nəfəsi!
Elinizə yaraq olsun, didərgin ana,
Yolunuza çıraq olsun, didərgin ana.
10.10.1989

## VƏTƏN FƏRYADI

Ey Vətən yolunda canı verənlər,
Müqəddəs torpağa ərlər, ərənlər,
Ey qana şahidlər, qanı görənlər,
Qanlı köynəyini yurda sərənlər...
Siz şəhid, biz isə günahkar olduq,
Yurdlar haray çəkdi, niyə kar olduq?

Qarabağ sızlayır aman içində,
Yanır ellərimiz yaman içində,
Oxumuz paslanıb kaman içində,
Fırlanır bu dünya zaman içində,
Məğlub tək tarixdə qaldı adımız,
Boğuldu sinədə ah-fəryadımız.

Yağı işğalını dərd sayırıq biz,
Özünü cahanda mərd sayırıq biz,

O qanlı düşməni səd sayırıq biz,
Hər dərdin əlacın bəd sayırıq biz,
Namus savaşına pul, dayı olmaz,
Heç cəngsiz yağının ah-vayı olmaz.

Vuruşmaq kişiyə iftixar, hünər,
Qılıncla, qalxanla yatar, durar ər,
Dünya nərd taxtası bəşər isə zər,
Tökməsən döyüşdə əgər qanlı tər,
Torpaq da, namus da, şərəf də batar,
Vətənin əbədi taleyi yatar.

Bir yurdu min yerə bölməkmi olar?
Bu qanı torpaqdan silməkmi olar?
Bu acı dərdlərə gülməkmi olar?
Bu qəmlə şahanə ölməkmi olar?
Bəsdir ermənin nazını öydük,
Yurdun qılıncın yox, sazını öydük.

Hey bəxşiş verdikcə torpağımızı,
Artırdıq sinədə qəm dağımızı,
Ərköyün bəslədik biz yağımızı...
Yadlardan axtardıq dayağımızı,
Ya xofu ürəkdən qoparmalıyıq,
Ya dərdi məzara aparmalıyıq.

Bəsdir Cavanşirdən, Babəkdən dedik,
Bəsdir Koroğludan, Beyrəkdən dedik,
Bəsdir puldan, vardan, diləkdən dedik,
Bəsdir bu ağrını ürəkdən dedik,
Biz savaş etməli vuruşmalıyıq!
Ya ölüb torpağa qarışmalıyıq!

Niyə yad ellərdə canı girlərik?
Niyə bir-birinə söz diyirlərik?

Niyə bu qan ilə ölüb çərlərik?
Niyə içimizdə elə kürlərik?
Yumalı qan ilə namusumuzu,
Özümüz qurmalı ya yasımızı!

Bu Vətən vallahi hamımızındı,
Ən ali dilək tək kamımızındı,
Bacası ucalan damımızındı,
Şirini, şərbəti canımızındı,
Qoparmaq olarmı kök-soyu ondan?
Çıxara bilmərik biz onu candan!

Yarımız acından pul dilənirik,
Yarımız qürbətdə hey tellənirik,
Yarımız zər geyib veyillənirik,
Düşüb ayaqlara çox bellənirik,
Nə vaxt millət olub çağlayacağıq?
İblisin qapısın bağlayacağıq?

Şuşada gülümüz, çiçəyimiz qan,
Xarıbülbül təki ürəyimiz qan,
Dam altda əyilən dirəyimiz qan,
Nə vaxta saxlanır bu gedəri can?!
Biz cılızlaşdıqca vətən kiçilir,
Torpaq paralanır, torpaq biçilir.

Dünyada qeyrətə edilir hörmət,
Şərəflə tanınır hər yerdə millət,
Acizə, qorxağa, cahilə illət,
Könlümüz olduqca əllərdə alət,
Dilənçi yardımı yedi kişilər,
Özünə qaçqınam dedi kişilər.

Oğullar bəslənir bəh-bəhə ilə,
Oxşanır boyları pəh-pəhə ilə,

Dilləri ötüşür cəh-cəhə ilə,
Düşmən gülür bizə qəh-qəhə ilə,
Sönmüş ocaqların külü sovrulur,
Vətən haray çəkir, Vətən qovrulur.

Yerdə qalmamalı bu tökülən qan,
Yara qaysaqlanır ötüşdükcə an,
Millət bir-birinə can deməli, can!
İqtidar, müxalif bir Azərbaycan,
Əsir yurd-yuvaya etməsək çarə,
Sonra lap dərinə işləyər yarə.

Bu dağ hamımızın sinə dağıdır,
Yağı hamımıza elə yağıdır,
Gəl, vətən insanı, qeyrət çağıdır!
Əldə Məmməd Əmin-hür bayrağıdır,
Parlasa Günəş tək istiqlalımız,
Bəxtiyar olacaq istiqbalımız.

Şadiman, vətənin canda yuvası,
Dərdinə dərmandır onun havası,
Tükənməz dodaqdan haqqa duası,
Bu torpaq dəryada Tanrı qəvvası,
Odur Yer üzündə xoş cəlalımız,
Onunla çağlayır çün vüsalımız!...

24.XII.2001

## JORJİKLƏR

Özün qoyar dağ başına jorjiklər,
Bir bəladır öz başına jorjiklər.

Öz dilinə divanə tək gülürlər,
Dindirəndə çox yuxardan gəlirlər,
Öz dilindən başqa hər dil bilirlər,

Nə ögeydi adətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Əsli-kökün yaxınına qoymayır,
Nizami kim, Füzuli kim duymayır,
Dahiyanə muğamata uymayır,
Ləkə olub hörmətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yad ləhcədə danışmadan ötüşməz,
Şaxta vurmuş sünbül təki yetişməz,
Yurd qəlbində bir yaradır bitişməz,
Nə haraya, nə fəryada yetişməz,
Vurulub öz qamətinə jorjiklər
Necə yaddı millətinə jorjiklər.

Özgə xalqla hər havaya oynayır,
Canbir olub qarışqa tək qaynayır,
Qəlbi, qanı yad millətlə qaynayır,
Vallah, billah tale ilə oynayır,
Şükürlüdür qismətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bilmir, onun bu vətəndə özü nə?
Tarixi nə, alimi nə, sözü nə?
Öz elinə haram baxan gözü nə?
Bu torpaqda yaşamağa üzü nə?
Ortaq elin sərvətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yurdam deyib ürəklərdə bitənin,
Hər ağrına, hər acına yetənin,
Yuxuda da bülbül təki ötənin,
Bu müqəddəs, bu qibləgah vətənin
Fərq qoymayır qiymətinə jorjiklər,

Necə yaddı millətinə jorjiklər.

Kəbə hara, qiblə hara bilməyir,
El yanında dönüb xara bilməyir,
Gətiribdi xalqı zara bilməyir,
Bu yol onu çəkir dara bilməyir,
Vurulubdu xilqətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bayatının şirinliyin qanmayır,
Layla ilə, tar, kamanla yanmayır,
Bu vətəndən olduğun da danmayır,
Kimliyini bircə kərə anmayır,
Səbəb olar illətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Adlarını yad xalqlardan götürür,
Uşağından nəvəsinə ötürür,
Nəsilinin keçmişini bitirir,
Dədəsinin kimliyini itirir,
Yağıdır soy nemətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Soruşanda azəriyik deyillər,
Azərinin ana dilin əyillər,
Qanı bizdən, dili bizdən deyillər,
Əcnəbinin önündə baş əyillər,
Damğa vurur qeyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Qürbət təki yaşayır öz elində,
Şair, alim, dahi olmaq əlində,
El duyğusu vurmaz ürək telində,
Hey yaradar yad bir xalqın dilində,
Əhsən deyər vüsətinə jorjiklər,

Necə yaddı millətinə jorjiklər.

Xalq içində tanınmayır yad təki,
Batıb qalıb buz içində od təki,
Ağızlardan qopub düşər dad təki,
İçimizdə haray, fəryad, dad təki
Səbəb Tanrı heyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Öz dilindən, öz dinindən dönəndi,
Yad ölkədə ulduz olub sönəndi,
Ağız açıb yad havayla dinəndi,
Zirvələrdən ayaqlara enəndi,
Necə babdı xislətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Elitayıq deyirlər bu millətə,
Çatdırırıq onun adın şöhrətə,
Biz salırıq özümüzü zillətə,
Ay adamlar, minnətə bax, minnətə,
Salmaz özün heç çətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Ay camaat, qınamayın siz məni,
Yandırıbdı gördüyünə göz məni,
Alışdırır ürəyimdə köz məni,
Gəldi dilə qoymaz rahət söz məni,
Sığışmaz heç el bətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

15.05.2001.

## BU YAZIQ XALQA QALAN BOŞ, QURUCA ZƏHMƏT OLUR

Talanır sərvətimiz xarici işbazlar üçün,
Nədir millət amalı ağlı dayaz qazlar üçün?
Banglərə dollar yığılır hər diləyi sazlar üçün,

Vətənin eşqi niyə sözləri avazlar üçün?
Nə ki var, var-yoxumuz yadlara bir nemət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sorulur neftimizin ən dərin qatları belə,
Aranır, axtarılır qatların çatları belə,
Təki başdakıların olsun büsatları belə,
Çağlasın min neçə cür haram həyatları belə,
Başımızda nə ki var, əcnəbiyə alət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Torpağın tən yarısı işğala möhtac edilib,
Millətin çoxu hələ qarnı tamam ac edilib,
Bu kimi işlərimiz taleyə amac edilib,
Varsa imkan qapısı, xariciyə bac edilib?
Bizlərin bəxtlərinə düşən hələ zillət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sözə gələndə elə min cürə cəh-cəh vurulur,
Daşınan varımıza gör necə qəh-qəh vurulur.
Damağı çağlar üçün badələr pəh-pəh vurulur,
Əlləri əllərinə nəşədən bəh-bəh vurulur,
Əzilən kütlələrə bəxş edilən illət olur,
Bu yazıq xalqa qalan, boş quruca zəhmət olur.

Bayrağa, həm himnə nə zatlar fərman eləyir?
Yazıq istiqlal hələ yadlara dərman eləyir,
Gopu min dağlar aşan dillərə aman eləyir,
Nə qədər imkanı var, hər işi yaman eləyir?
Ayağ altda əzilən yenə də bu millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Amerka xammalının dəyməyib heç bir qatına,
Sərvəti başdan aşır, nur tökülür həyatına,
Düşmüşük biz də elə taleyin bata-batına,
Baxırıq Avropanın gözqamaşan busatına…
Səsimiz çıxsa əgər, lap böyük bir qələt olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Əlimiz başımıza kül eyləyir vay-vay ilən,
Gözümüzdən yaş axır dəli-dolu min çay ilən,
Bizə hər nə verilir ölçü-biçi və say ilən,
Nəyimiz var daşınır bankələrə lap tay ilən?
Ahı ərşi dağıdan bir neçə cür halət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Bizim kor bəxtimizə gülmədi heç Xuda niyə?
Diləyimiz çin olur gecələr yuxuda niyə?
Əcnəbinin burunu qalıbdı qoxuda niyə?
Ötüşür günlərimiz bəs qara-qorxuda niyə?
Bizə çor, xariciyə bir o qədər hörmət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Nə ki, Bakı nefti, bölgələr də dəbə düşüb?
Talananlar talanır, ürəklər də həbə düşüb,
Əlində hökmü olanlar nə yaman təbə düşüb?
Binəva millətimiz xariciyə təbə düşüb…
Ölkəyə, ay həzarat, bəs bu necə qiymət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Şadiman bir parasın söylədi bu ahımızın,
Doğulanlara görə nəyi var sabahımızın?
Özümüzdə görürəm çoxunu günahımızın,
Yetməyir bizlərə heç haqq nuru Allahımızın!…
Gələcəyi görməyən bəxti qara millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

19. 02. 2005

**VƏTƏN OLMAZ**

Yurdda isti hər bucağın,
Qərib dada yetən olmaz.
Vətən sənin öz ocağın,
Qürbət eldən vətən olmaz.

Ha səsləsən fəryadına,
Çatan olmaz imdadına,
Yad baxarlar övladına,
Qürbət eldən vətən olmaz.

Ağlayarsan için-için,
Yas tutarsan yuvan üçün,
Ah, İlahi, bilməm neçin?!
Qürbət eldən vətən olmaz.

Yadlaşarsan ana dilə,
Səsin çatmaz doğma elə,
Qabar salar məktub ələ,
Qürbət eldən vətən olmaz.

Dilindəki söz yad olar,

Adətinə göz yad olar,
Sinəndəki köz yad olar,
Qürbət eldən vətən olmaz.

Məsləkindən dönər könül,
Alışmamış sönər könül,
Ayaqlara enər könül,
Qürbət eldən vətən olmaz.

Dindirərlər, dilin ağlar,
Qürbətdə hər ilin ağlar,
Göy yuxuya könül bağlar,
Qürbət eldən vətən olmaz.

Su deyilsən calanasan,
Yad irmağda talanasan,
Qərib-qərib bulanasan,
Qürbət eldən vətən olmaz.

Vətənsizə nə səadət?
Gəl eyləmə yada adət,
Yad ocağa nə ibadət?
Qürbət eldən vətən olmaz.

Vətən dilin duasıdı,
Ciyərimin havasıdı,
Millətimin yuvasıdı,
Qürbət eldən vətən olmaz.

Qınamayın Şadimanı,
Vətən onun şirin canı,
Keçməsin heç yurdsuz anı,
Qürbət eldən vətən olmaz.
Qürbət eldən vətən olmaz.

29.06.2001.

## ŞAİRİMİZ

*Bəxtiyar Vahabzadəyə*

Artır gündən-günə el möhnəti,
Haram yeyənlərinin qüdrəti,
Satılır məmləkətin sərvəti,
Qul olub ac-yalavac milləti,
Nədi bu köləliyin niyyəti?
Düşüb ayağa vətən hörməti,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Niyə Xuda verir qəmi bizə?
Bəxş edir bu ağlar dəmi bizə,
Üz-gözü bulayan nəmi bizə,
Vermədi bir şirin təmi bizə,
Yoxmu heç bir dolu zəmi bizə?
Güldürür hey bu aləmi bizə,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Duydum Sabir təki fəryadını,
Çox qürurla çəkirəm adını,
Eşidə Rəbb elə imdadını,
Yad edə bu vətən övladını,
Görmürəm indi elin şadını,
Alçalır millətin qız, qadını...
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Derlər ki, tükənməz varımız,
Niyə artır elə ah-zarımız?
Bitmirmi tarlada dən, darımız

Yox olub əhdi və ilqarımız,
Düşüb ayaqlara vüqarımız,
Yetməyir millətə heç karımız,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Getdi əldən Qarabağ gülzarı,
Artdı cigərimizin azarı,
Vətəni etdilər qul bazarı,
Batırırlar sinədə həzarı,
Andırır bu ölkə bir məzarı,
Ağladır hey həqiqi yazarı,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Yandırar qəlbimizi sözlərin,
Qəm girdabına tuş gözlərin,
Tökülür vərəqlərə közlərin,
Qalacaq şeirdə pak izlərin,
Gecədən çox qəmi gündüzlərin,
Sən böyük şairisən bizlərin,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Xuda qoya bir haqqı yoluna,
Verə qüdrəti, gücü qoluna,
Məmləkətin xilası buluna,
Baxıla diqqət ilə sağ, soluna,
Dərdimizə bir çarə oluna,
Kaş tapıla əlac el halına,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Yoxdur elin çadırlarda günü,
Açan yoxmu bu tilsim düyünü?

Batır xəlqimizin içdə ünü,
Çıxarmaq olmur xörək iyini,
Kəsdilər bu millətin heyini,
Talayır bu müsibət beyini,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Günbəgündən bu vətən ac oldu,
Bu necə dərdlərə əlac oldu?
Əcnəbiyə varımız tac oldu,
Şərəfimiz yaman hərac oldu,
Bir qarın çörəyə din xaç oldu,
Bu millət  niyə naəlac oldu?
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Gülməyir üzümüz heç Xudadan,
Niyə qurtulmayırıq qadadan?
Haram yeyən yapışıb ədadan,
Tellənir hər cürə xoş sədadan,
Qopur fəryadımız can odadan,
Hara qaçım gedim de adadan?
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Bizə çatanda zaman qan oldu,
Elə fəqanə düşən can oldu,
Millətin dərdinə büryan oldu,
Məmləkət soyuldu, üryan oldu,
Tapdanan ayaqda ad-san oldu,
Ciyərimiz niyə şan-şan oldu?!
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Necə qanə batıb torpağımız,

Saralır bağımız, yarpağımız,
Şişir sinədə hey qəm dağımız,
Olacaqmı görən xoş çağımız?
Pərişandı hələ bayrağımız,
Baxır qəh-qəh çəkir bəd yağımız,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Bir çoxu lap günaha suvaşır,
Talıyanlar da zirvələr aşır,
Yenə də dərdlərimiz baş aşır
Tükənib eldə səbir də daşır,
Şərlə şeytan elə pıçıldaşır,
Yağı, düşmən yaramızı qaşır,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

Şadimanı qınayır hər yetən,
Candan əziz olur ana vətən,
Odu sinəmiz içində bitən,
Nə gələr ki, elə dünyada tən?
Olub ruhumuza əbədi tən,
Bədənimiz ona olacaq dən,
Ey ürəyi yanan şairimiz,
Vətən dərdini anan şairimiz.

6.02.2002.

**SƏNƏ NİYƏ BELƏ ZÜLÜMLƏR OLDU ?**

Sənə niyə belə zülümlər oldu?
Bağrının başında dilimlər oldu,
Zindana atıldın ölümlər oldu,
Hər gün tayfalaşdın, bölümlər oldu,
Torpağı, sərvəti talan millətim,
Əzablar içində qalan millətim.

Sən ellər içində - el idin axı?
Coşanda çağlayan sel idin axı?
Dumana düşəndə yel idin axı?

Bir mizrabı vuran tel idin axı?
Özün müsibətə salan millətim,
Əzablar içində qalan millətim.

Bir zaman köləlik daşını atdın,
Qorxunu, gözünün yaşını atdın,
Meydana düşünən başını atdın,
Yenə tayfalaşdın, yuxuya yatdın,
Ey cəhənnəmi pay alan millətim,
Əzablar içində qalan millətim.

Azadlıq deyərək bir gün çağladın,
Oğlun şəhid düşdü, candan ağladın
Yağı yurdu basdı – sinə dağladın,
Ümidi, Tanrıya haqqa bağladın,
İndi saçlarını yolan millətim,
Əzablar içində qalan millətim.

Bugün işğal altda Qarabağın var,
Sinənə çəkilmiş min bir dağın var,
Minüzlü, hiyləgər, azğın yağın var,
Əsir yurdlarında kor çırağın var,
Könlü parçalayan ürək ağın var,
Dərdləri üst-üstə kalan, millətim.
Əzablar içində qalan millətim.

Əskərin, polisin, ordun da bizim,
Yad ayağı altda yurdun da bizim,
Hər çaqqalın, tülkün, qurdun da bizim,
Özün öz boynunu vurdun da bizim,
Acından, soyuqdan solan millətim,
Əzablar içində qalan millətim.

Övladın səpilib dünya üzünə,
Güzəran axtarır bugün özünə,
Özgələr qızınır niyə közünə?
Məhəl qoyan yoxdu niyə sözünə?
Özü öz canına ilan millətim,
Əzablar içində qalan millətim.

Aldığın məvacib qarın doydurmaz,
Ac qalan mədəni yuxu uydurmaz,
Könlü qalınları ahın duydurmaz,
O yatmış ağlından nədən hay durmaz?
Haqqı yadlara qul olan millətim,
Əzablar içində qalan millətim.

O Milli Məclisin quyuruq yedi,
Haqqına xor baxan buyuruq yedi,
Sənin halına çox uyuruq dedi,
Ziyayıq, hər şeyi duyuruq dedi,
Diliylə Allaha nalan millətim,

Əzablar içində qalan millətim.

Şadimanın üzü pərişanədi,
Hər misra ilhamdan bir nişanədi,
Ürəyi ahından şanə-şanədi,
Qəminin oxuna qəlb nişanədi,
Hələ xəyallara dalan millətim…
Əzablar içində qalan millətim.
11.X1.2003

## QAN-QADALI MƏMLƏKƏTİM

Azərbaycan – dərdi böyük, şəhidlərin yurdu diyar,
Hıçqırığın boğazında kilidlənib ürək oyar,
Yadellilər azğınlaşıb əleyhinə imza qoyar,
Sərvətini talayanlar, hər nəyin var satar, sovar,
Yığdığını gizlədənlər yığdığından nə vaxt doyar?…
Varlığına qənimlərin gül hüsnünə haçan uyar?
Səndən başlar, gözəl Vətən, Allahıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

İçindəki göz yaşını boğub, susub dayanmısan,
Fitnələrdən, fəsadlardan al qanına boyanmısan,
Qollarında qandalların ya yatıb, ya oyanmısan,
Alışmısan ocaq üstə, atəşlərə çox yanmısan,
Ağızımın dadı, Vətən, təbim, ruhum, bərəkətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sən səadət arayarkən, səadətin öldü getdi,
Düşmən gəldi torpağını tikə-tikə böldü getdi,
Xainlərin, bədxaxların hey üzünə güldü getdi,
Atəşini sovurdular, ocaqların küldü, getdi,
İzlərində, cığırında niyə donub hərəkətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sənə canı qurban dedim, qurbanını götür apar,
Atıl savaş meydanına titrət ərzi, tufan qopar,
Əliqanlı cəlladların içdə, çöldə bağrı çapar,
Ürəyim od tutub yanar, dərdlərinə misra yapar,
Harda itib, harda batıb milli hissə nəzakətim?!
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Düşmən çapır yurd-yuvanı övladların susur, durur,
Döşənibmi ayaqlara bəy babama layiq qürur?
Cəlladların Qarabağda ağac çapır, yuva qurur,
Öz ağlımız içimizin atəşini suya vurur,
Dodaqlarım kilidlənib cövlan edir sükunətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Cavidimin, Cavadımın, Mümtazımın ahı səndə,
Məmməd Əmin amalını batırdınmı duman, çəndə?

Övladının gəzdirdiyi ürəkmi, ya daşmı təndə?
Ölülərin dirilərə ağı deyir bu Vətəndə!!!…
İqtidarım–müxalifim susub, öndə fəlakətim…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Al canımı birdəfəlik, canım sənə fəda olsun,
Başın üstə bu sonuncu itgi olsun, qada olsun,
Dikəlt əyilən qəddüvü, dur savaşa səda olsun,
Ayağının altın qazan övladların gəda olsun,
Düşməninə, satqınına bu mərtəbən əda olsun,
Xain çıxsam, quşlarının yemi olsun təndə ətim!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Səndən əziz kimim var ki, de cahanda ulu yurdum?
Ürəyinin atəşindən bu könlümə ocaq qurdum,
İçimdəki qorxuları kötüklədim, boynun vurdum,
Alacaqmı işğalçıdan torpağını Milli Ordum?
Bu məramla mən yuxumda gecəgözlü şəri yordum,
Səndən başlar Qanunuma, Kitabıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Qarabağın qıfılına düşməyirmi heç bir açar?
Şəhidimin məzarının goru çatlar, yerim qaçar,
Bədənimin əti gedər, vücudumdan dərim qaçar,
Eyləmişik özümüzü qul fikirli qəmə düçar,
Əri olan bir ölkənin yurdu qalmaz düzdə naçar…
Boğulubmu kişi həddim, ər dözümüm, dağ cürətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Bizi tarix dolaylarda min bir yerə çapdı keçdi,
Sinəmizin aynasına qara çirkab yapdı keçdi,
İtdişlilər ağzımızdan sözümüzü qapdı keçdi,
Övladların ocağını kül eylədi, sapdı keçdi,
İçimizdən xain çıxdı, oldu xara qul heyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Dağlar başı duman olar, yel dumanı qovar gedər,
Sel coşanda bənd-bərəni, çal-çəpəri ovar gedər,
Gözdən axar qan yaşlarım yanan könlü suvar gedər,
Sinəmizdən qorxuları gurşadların yuvar gedər,
İçimdəki sərsəmlərə üsyan edər  can qeyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Nədir belə qoruyuruq canımızı tən altında?
Kürsülərə aşiq olduq, hiss boğuldu mən altında,
Ağlımızı ovxalayır iradəmiz çən altında,
Sərçələrin sürüləşib, qartalların dən altında…
Öz gözümün güzgüsündən gözəl görünür surətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Kərkükümə,Təbrizimə, Dərbəndimə ağı Vətən!
Övladların özü oldu yurd-yuvana yağı, Vətən!

Getməz qeyrət hissi olan sinədən el dağı, Vətən!
Vuruşmasaq, döyüşməsək, bitməz işgal çağı,Vətən!
Dur ayağa çalxat yeri, qopart göydən tağı, Vətən
Kəs Xətayi qılıncınla əllərindən bağı, Vətən!
Ürəyimdə yaram sızlar, təbib bulmaz bir illətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Şadimanın bağrı partlar, dözməz sənin möhnətüvə,
Qarabağın əldən gedib, düşmən gülür möhlətüvə,
Dodaqların dilin tutub, mat qalmışam millətüvə,
Pardaqlanır yağlananlar, fərman verir zillətüvə,
Qolun harda qopub düşüb nə olubdu qüvvətüvə?
Tanrı özü təkan versin donub qalan sürətüvə,
Haçan qalxar ayaqlardan ucalığa ləyaqətim?!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim…
3. 05. 2003

**EL NƏ VAXT QOVUŞAR ELİNƏ, TƏBRİZ?**

Dərdli sinəmizdən kədər sovuşmaz,
Uçarıq hər zaman yelinə, Təbriz.
Niyə ayrı düşmüş bu yurd qovuşmaz?
Yetməz əllərimiz əlinə, Təbriz.

Kökü parçalanmış ağac yazlamaz,
Böldü bir ürəyi ikiyə almaz,
Gedər bu haqsızlıq bir zaman qalmaz,
Yetişər dilimiz dilinə, Təbriz.

Arada tikanlı sərhəd dirəklər,
Atını oynadar min bir kələklər,
İnsafa gələydi o daş ürəklər,
Bir vüsal səpəydi elinə, Təbriz.

Anasız çocuqtək arzu mələyir,
Onu beşiyində həsrət bələyir,
Dövran zaman-zaman qarlar ələyir,
Ələmdən ağarmış telinə, Təbriz.

Tökülən göz yaşın min dərya tutar,
Fələk bu zülmü necə unudar?
Bu nalə, bu fəryad haqqı oyadar,
Yük olmaz dərd bükən belinə, Təbriz.

Ellərin harayı tutub dünyanı,
Hanı, dadımıza yetişən hanı?
Bəsdir ayırdılar canından canı!
Qarışaq vüsalın selinə, Təbriz.

Nə vaxt yetişəcək bu əl, o ələ?

Ayrılıq nə qədər quracaq tələ?
Yansın düşmənldərin qoy innən belə
Suvaşsın həsrətin külünə, Təbriz.

Nə zaman yetişər o vüsal barın?
Haçan azad olar sərhəd yolların?
Zəncirdən açılan bağlı qolların,
Hay salar sazının telinə, Təbriz.

Şadimanın sənə istəkli övlad,
Haqdan, ədalətdən diləyər imdad,
Kəsilər hıçqırtı, bu nalə, fəryad –
El nə vaxt qovuşar elinə, Təbriz?

16.12.1989/
Zenalabdin Tağıyev qəsəbəsi

**ÇIXAR CANI YOXSULUN**

Dərdlərinə çarə hanı yoxsulun?
Bundan sonra çıxar canı yoxsulun!

İtiribdi çoxdan varı-mülkünü,
Mehman edib qəlbə qorxu-hürkünü,
Çörək üçün satıb köhnə kürkünü,
Qaralıbdı yaman qanı yoxsulun.
Bundan sonra çıxar canı yoxsulun.

Haram cibli tikir hündür imarət,
Sonra gedib hacı edir ziyarət,
Vicdan qarət, iman qarət, din qarət,
Əhvalını yaxşı tanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Quru evin heç-neçəyə satıbdı,
İnnən belə Aşqabad tək batıbdı,
Olan-qalan bəxti daha yatıbdı,
Oğul, uşaq dolu yanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Kim çatıbdı bu dünyada karına?
Sığınıbdı namusuna, arına,

Quru çörək tapmayır heç qarına,
Batdı qalan adı, sanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Fələk yoxdan daş yağdırıb başına,
Heç baxmayır gözdən axan yaşına,
Divan tutub daş üstündə daşına,
Damarında donub qanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Hey səbrinin ağzın duzla ovubdu,
Nəyi varsa hər gün satıb-sovubdu,
Şər, xətanı özündən yan qovubdu,
Dərdi çoxdu tükü sanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Külfətinin baxa bilmir gözünə,
Nifrət edir yağı təki özünə,
Çıxmayır ki, daha millət üzünə?
Aləmə var hər nişanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

İş tapmayır kasıbçılıq eləyə,
Həsrət qalıb evində hər diləyə,
Az qalıbdı quzu təki mələyə,
Qarə gəlib daha anı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Varlıların çox rəngbərəng maşını,
Ona tərəf heç fırlatmır başını,
Görəndə də çatır yay tək qaşını,
Bitməz daha heç divanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Gündən-günə suyu yaman bulanır,

Dükan gördü elə ağzı sulanır,
Öz evini satmaq ilə dolanır,
Gəlib yenə pis zamanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Evin satıb dəyişdirmək peşəsi,
Ciyər dərddən dağ-dağ olub şişəsi,
Yoxdu daha doğma isti guşəsi,
Hey dəyişər ev ünvanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Ev dəllalı olanlar da şellənir,
Kasıbların bellərində yellənir,
Açdıqları ofislərdə tellənir,
Süfrəsində yox yavanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Baş açmıram bu fələyin işindən,
Təmizləri hey keçirir dişindən,
Uzaq düşüb çox ev öz biş-düşündən,
Halına yox mehribanı yoxsulun,
Bundan sonra çıxar canı yoxsulun.

Ey Şadiman, çoxları can üstədi,
Ac qalmaqdan çox mədələr xəstədi,
Hiylə, fitnə, yalanlar üst-üstədi,
Qalmayıbdı ah-amanı yoxsulun!
Bundan sonra çıxar canı yoxsulun.

13.05.2001

**SATIRAM**

*/ “ Ay alan!…Məmləkəti–Rey satıram “*
*M. Ə. Sabir /*

Qoymuşam məmləkəti bazara,
Vətən övladı düşsün azara,
Ya ki, dönsün evi məzara,
Vətəndə çoxdu bərəkət, satıram,

Ay alan, gəl, məmləkət satıram.

Verin fabrik, zavodu həraca,
Bunun ki, bir xeyri yoxdu aca,
Xəlqdə ki, var tüstü, həm də baca,
Qoymayın ümid qalsın əlaca,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Şükürliyəm necə istiqlala?
İstiqlal çatdırar istiqbala,
Acam deyib hay-küy salma, bala,
Ötürüm mal-mülkü bala-bala,
Qoy dönsün lap camaat hambala,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Qızıldan qiymətli torpağımız,
Meyvələri sapsarı bağımız,
Əcnəbiyə çatsın bu çağımız,
Nə ağzı var kəm baxa yağımız?
Firavanıq, daha yox dağımız,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Ac uşaqlar küçədə dilənsin,
Ocağımız sönərək küllənsin,
Kəhrizimiz qurusun küllənsin,
Qarnımız lap acından dillənsin,
Sobada boş qazanlar yellənsin,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Neft və qaz Vətənin cah-cəlalı,
Haram yeyənlərin yox məlalı,
Nə illət tapacaqdı həlalı?
Deməyin ki, başımız bəlalı,
Yetdik mərama azad olalı,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Tökmə çox bəbəkdən yaşı belə,
Neyləsin ac qazanda aşı belə?
Tökə ğöydən Rəbbim daşı belə,
Heç sanma özünü naşı belə,
Hiddətindən çatma qaşı belə,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Cəmi bir şəhərlik millətimiz,
Niyə olsun bu qədər zillətimiz?
Dollara bağlı hər hörmətimiz,

Öz evimizə yetər qeyrətimiz,
Xalqın ki, dərdi deyil illətimiz,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Vallah, bu xəlq mənə canı verər,
Ürəyindən axan qanı verər,
Ömründən ən şirin anı verər,
Evinin içini, hər yanı verər,
Rəbbim hələ xoş dövranı verər,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.
7. 02. 2002

## CANIM QARABAĞ

Qarabağ, canım Qarabağ,
Dinim, imanım Qarabağ.

Başını yaman qatdılar,
Səni yağıya satdılar,
Zəngəzuramı qatdılar?
Qarabağ, zövqüm Qarabağ,
İlahi şövqüm Qarabağ.

Satdılar dilbər yuvanı,
Unutdularmı ünvanı?
Tanrı eşitməz duanı...
Qarabağ, elim Qarabağ,
Qırılan telim Qarabağ.

Yox yollarının hamarı,
Yurdun şahənşah damarı,
Telinin yoxdu tumarı,
Qarabağ, dərdim Qarabağ,
Yoxmu bir mərdim Qarabağ?

Gözdən axıtma yaşını,
Çatma əzabdan qaşını,

Duzsuz etdilər aşını,
Qarabağ, adım Qarabağ,
Könül fəryadım Qarabağ.

Heç şad olmasın dünyada,
Mənliyini satan gəda,
Yetən olmadı imdada,
Qarabağ, ahım Qarabağ,
Tanrı günahım Qarabağ.

O Cıdır düzün üşüdü,
Bu diş canavar dişidi,
Demə ilahi işidi...
Qarabağ, yazım Qarabağ,
Səsim, avazım Qarabağ.

Ey şəhidimin məzarı
Xarı-bülbülün gülzarı,
Dikəlib ərşə ah-zarı,
Bağının solub el barı,
Qarabağ, yurdum Qarabağ,
De haydı ordum, Qarabağ!

Aç qollarını gələrəm,
Düşməni qana bələrəm,
Gözündən yaşı silərəm,
Dərdindən solub ölərəm!
Qarabağ, yuvam Qarabağ,
Dilimdə duam Qarabağ.

Niyə susub məmləkətin?!..
Hara düşübdü külfətin,
Nədən kəsildi ülfətin?
Hardadı kişi qüdrətin?
Lalmı olubdu millətin?!

Qarabağ, gözüm Qarabağ.
Qalmadı dözüm Qarabağ.

Yurd əlimizdən üzüldü,
Sinənə güllə düzüldü,
Köynəyindən qan süzüldü!
Bu ürəyimiz üzüldü,
Qarabağ, hayım Qarabağ,
Dolu sarayım Qarabağ.

Çeşmənin gözü yatırdı,
Kim taxt-tacına oturdu?
Adını xain batırdı,
Qarabağ, canım Qarabağ,
Azərbaycanım Qarabağ.

25.07.2001.

## AY ŞUŞA

Yolunu bağlayan düşmənlərə ölüm!
Gözlərim qan ağlar, qəlbim dilim-dilim,
Ayrılıq dünyada nə dəhşətli zülüm?
Yolların qurtula dumandan, ay Şuşa...
Alasan qisası zamandan, ay Şuşa!

Biz səni yağıdan qoruya bilmədik,
Yaralı köksünü sarıya bilmədik,
Cəlladın kim oldu, araya bilmədik?
Bəbəkdə yaşların göl oldu, ay Şuşa,
Büsbütün Qarabağ dil oldu, ay Şuşa!

Ürəklər partlayır həsrətin qəmindən,
Yanır bağırımız, vallah ələmindən,
Əsir Qarabağın naləli dəmindən...
Dərd qalxır ocaqdan, binədən, ay Şuşa.

Başımız qalxmayır sinədən, ay Şuşa!

Xan qızı Natəvan, didərgin ruhuna,
Sinəmiz tuş olub o qanlı ahına!
Çevrilib vətənin pak qibləgahına,
O əsir divarın, dam-daşın, ay Şuşa,
Öndədir yağıyla savaşın, ay Şuşa!

Heç səni sinədən qoparmaq olarmı?
Bu dərdi məzara aparmaq olarmı?
Heç bədən də candan de ayrı qalarmı?
Könlümün göynəyən yarası, ay Şuşa.
Vətənin  köksünün parası, ay Şuşa!

Əsir Qarabağı yağıdan alarıq,
Qolumuzu bükük boynuna salarıq,
Çox çəkməz düşmənə qələbə çalarıq...
Küləyə dönərik qəminlə ay, Şuşa,
Qol-boyun olarıq dəminlə, ay Şuşa!

Üzeyrin, Cabbarın, Bülbülün ocağı,
Vətənin ən gözəl, ən laçın qucağı,
Qan ağlar, ah sənsiz yurdun hər bucağı,
Suyumuz, ən təmiz havamız, ay Şuşa!
Kəbəmiz, qibləmiz, duamız, ay Şuşa!

Bağında, bağçanda solubdu güllərin,
Susubdu dinməyir xarı bülbüllərin,
Nə qanlı, bəlalı gəldi bu illərin?
Dözmək olarmı heç zillətə ay Şuşa?
Bu dərd bir fəlakət millətə, ay Şuşa!

Şadiman alışar, yanar bu niskildən,

Bülbülü ayırmaq olarmı heç güldən?

Vallah, düşməyir o adın heç dildən,

Ağlayan gözümün yaşı, ay Şuşa!...

Alışan köksümün başı, ay Şuşa!!!

15-16/01.1999

**ZƏNCİRLƏNMİŞ PROMETEY…**

*Qəhraman əskərimiz*
*Ramin Səfərova*

Haqqın ayaqlar altında,
Xəyalın igidlik atında,
Bir fırtına baş verdi həyatında,
Nifrətlər tüğyan etdi könlünün
ən dərin qatında.
Ululərın sədası bağrında qopartdı hey,
Zəncirlənmiş Prometey!

***

Düşmənin hərzələrinə,
təhdidlərinə dözə bilmədin,
Məğlub adıyla gəzə bilmədin,
Bu ağrının içində üzə bilmədin,
Müsibətin şiddəti sızlayan ney,
Zəncirlənmiş Prometey!

***

Ey igidim,
Mən bu üsyana can dedim!
Ey qəhrəman ƏSKƏRİM,
Ey nərəsiylə dünyanı titrədən nərim,
Haqqımız key, başımız sərsəm,
Bu ağrını kimə desəm
yanıb tökülər,
Sinəsinə dağlar çəkilər.
Biz hər şeyi dözə-dözə itiririk,
Könlümüzdə fəlakətlər bitiririk,
Bu fəlakətlər sərxoş edən acı mey,
Zəncirlənmiş Prometey!

***

Sən Macar dediyimiz ölkədə,
Lap çoxdan qanımızın qarışdığı bölgədə,
Erməni təhdidlərindən şir təki qızışdın,
Qurd kimi qəzəbindən daşdın,
Bütün qadağaları aşdın…
Qasırgalar təki əsdin,
Murdar düşmənin başını kəsdin!
Bu haqqımızı misqal-misqal,
zərrə-zərrə qul qismində tutanlara,
Neçə ildi könlümüzə çatanlara,

Uşaqlı-böyüklü bizi təslimçiliyə atanlara,
Ağlı-qaralı riyaya,
Bütünlüklə səsimizi boğan dünyaya
Yer-göyü titrədən giley,
Zəncirlənmiş Prometey!
***
Koroğlu hoylum ey,
Haqqına maylım ey,
Öz gücünə hayılım ey,
Qəzəbi sönmüş qurda lazımsan,
Əsir düşmüş yurda lazımsan,
SƏN BİZƏ BURDA LAZIMSAN!!!...
Ora qərib qəfəsidir,
Bu VƏTƏNİN səsidir,
Bu səsi eşit ehey…
Uca boylum, qartal baxışlım ey,
Zəncirlənmiş Prometey!...
Zəncirlənmiş Prometey!...
23.11.2008 /Pirallahı

**DÜŞMƏNİ KÖKSÜNDƏN VURDUN, MÜBARİZ**

*İnternetdə, erməni saytlarında Azərbaycanın*
*Milli Qəhrəmanı, cəsur əskərimiz Mübariz*
*İbrahimovun nə'şi nümayiş etdirilir.*
*Meyitimizdən qisas alan düşmənin*
*alçaqlığı və qorxaqlığı göz önündədir.*
*Bütün dünya buna tamaşa edir!*
*Səssiz, lal, sükut içində…*

Çəkdin yağıların sinəsinə dağ,
Nərəndən titrədi əsir Qarabağ,
Nədən qürurluyuq ölüyük, ya sağ?!
Bu dərddən kükrəyib durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Qisasın yolunu öyrətdin bizə,
Mənfur iblislərə nifrətin nizə,
Yaradan bu şərdən xilası çözə,
Dərdi nə ağırmış yurdun, Mübariz?
Düşməni köksündən vurdun, Mübariz.

Yetdin şəhidliyə şir ürəyinlə,
Mübarək bahadır, pir ürəyinlə,
Əlləşdi, vuruşdu sirr ürəyinlə,
Bu sirdən bir tarix qurdun, Mübariz,
Düşməni küksündən vurdun, Mübariz.

Dur, EY VƏTƏN OĞLU, boyuna qurban!
Elinə, kökünə, soyuna qurban,
Heç vaxt olmayacaq toyuna qurban,

Bağrından boylandı qurdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Meyitdən qisası alan cəlladlar,
Şər olan yerlərə qədəmin adlar,
Tarixə köçəcək müqəddəs adlar…
Qeyrətçin keşikdə durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Çingiz harayına qarışdı sədan,
Əsir Ramildənmi gəldi haqq nidan?!
Yaralı Vətəndən hər gün qəm udan,
Avtomatın oldu ordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Xain hiyləsindən heç vaxt dönməyir,
Ya kin-küdurəti bir an sönməyir,
Yağı sinəsində qəlb döyünməyir,
Qisası qisasdan sordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İgidim, olmusan məşhuri-cahan,
Şəninə söyləyir yer-göy də sübhan,
Can şəhidim deyir dil-dodaq, dəhan,
Canların içində qordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İnternet saytı nə‘şinə çıraq,
Verir cəsurluqdan nə‘şin də soraq,
Biz də sənə baxıb tilsimi yaraq,
Divin şüşəsini qırdın, Mübariz,
Düşməni köksündən vurdun,Mübariz.

Atanın, Ananın, Vətənin canı,
Nə şərəfli etdin Azərbaycanı,
Şadiman şeir edir hiss-həyacanı,
Könlün misra-misra sardın, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.
Düşməni köksündən vurdun, Mübariz.
18.08.2010 Pirallahı

## İSTİQLALIN SORAĞI

*İstiqlalımızın Öndəri Məmməd Əmin Rəsulzadəyə…*

Azərbaycan davasıyla gəzdin ölkəbəölkə,
Hər cür ağrı-acılara dözdün ölkəbəölkə,
Pak bağrını əzablarla üzdün ölkəbəölkə,
İstiqlalı ürəyində yaşatdın, Məmməd Əmin,
Qəlbdə şanlı heykəlini ucaltdın, Məmməd Əmin.

Ey millətin fədaisi, ey başı uca öndər,
Köləliyə usyan dedin, düşdün yurddan dərbədər,
Yaratdığın cumhüriyyət sanma ki, oldu hədər,
Könlümüzün şərəf dolu havası Məmməd Əmin,
O himnin  ki, dilimizin duası, Məmməd Əmin.

O üç rəngli ay–ulduzun başımızın üstündə,
Ucalacaq bu torpaqda heykəlin də, büstün də,
Keçdin hər cür qan-qadadan bu Vətənin üstündə!…
Mirvari ki, parlaq olar sədəflə, Məmməd Əmin,
Taprixlərə düşdü adın şərəflə, Məmməd Əmin.

Ey taleyi məhkum olmuş Məmləkətin övladı,
Avropada aha döndü dilinin haqq fəryadı,
Sən qorudun kişiliylə o müqəddəs, pak adı,
Qürbətlərdə Vətən dedin, alışdın, Məmməd Əmin,
Bağrımızın atəşinə qarışdın Məmməd Əmin.

O qurduğun istiqlalın havası başımızda,
Çəkdiyimiz sitəmlərin ahı göz yaşımızda,
Kölə olduq, qana batdı hər zərrə daşımız da,
Öldü min bir savaşlarda bacı, qardaşımız da,
Əsirliyi dada-dada qul olduq, Məmməd Əmin,
Selə düşmüş çay daşı tək oyulduq, Məmməd Əmin.

Əyilmədin, qul olmadın yağılara heç zaman,
Qulpərəstlər təki, Öndər, diləmədin ah-aman,
İman əhli olanları tərk eləyərmi iman?
Ey imanı kamil başçı, yağı hiyləsi yaman,
Didərginlik fəraqına tuş oldun, Məmməd Əmin,
İstiqlalın mayağıtək faş oldun, Məmməd Əmin.

Azərbaycan istiqbalın dünyaya elan etdin,
Dağıtdılar amalını sonadək nalan etdin,
Üçrəngli pak bayrağı, himnini balan etdin,
On səkkiz ay hür tarixin o könül qalan etdin,
Qəlbimizin səmasında Günəşsən, Məmməd Əmin,
Azadlığın ocağına atəşsən, Məmməd Əmin.

O qurduğun cumhüriyyət yenidən ucalıbdı,
Sevmədiyin köləliyə millət zəfər çalıbdı,
Başıbəlalı məmləkət öz haqqını alıbdı,
Adın, ey  ulu  Öndərim, tarixlərdə qalıbdı,
Ruhun azad uça bilər Vətəndə, Məmməd Əmin,
Pak olur qəlbdə hüriyyət bitəndə, Məmməd Əmin.

Səni tarix yaşadacaq böyük əməllərinlə,
İstiqlal yoldaşlarınla hür qurdun əllərinlə,
Qaldın tarix səhnəsində üsyankar illərinlə,
Ürəyində yara açdı dərd kölə ellərinlə,
Məzarın türk torpağında qalıbdı, Məmməd Əmin,
Ruhun ana Vətəndə yurd salıbdı, Məmməd Əmin.

Novxanıdan qanadlandın istiqlal səmasına,
Könlümüzdə bir ocaq var o günəş təmasına,
Tuş olubdu çox diləklər taleyin əmmasına…
İlahi də imza qoyub köləliyin yasına,
Əsir olmuş torpağımız alına, Məmməd Əmin,
Şanlı Himin qul Şuşada çalına, Məmməd Əmin...

Bu Şadiman, ey Öndərim, istiqlala can deyir,
Öz qanını azadlığın yolunda qurban deyir,
Sənə arxa çevirənə savaş deyir, qan deyir!
Yumruq boyda ürəyinə haqq yolunda yan deyir!
Bayrağımın, himinimin çırağı, Məmməd Əmin,
İstiqlalın on səkkizdən sorağı, Məmməd Əmin!…
21.01.2002

**MUSTAFA KAMAL ATA TÜRK**

Bir zaman yağıların eylədi işğal Vətəni,
Saldı min bir əzaba gör necə bu hal Vətəni,
Qoydu yaman günlərə, etdi halbahal Vətəni,
Atdı ağrı-acıya belə qeylü-qal Vətəni,
Oldu millətə dirək–Mustafa Kamal Ata Türk,
Böyük yurduna ürək–Mustafa Kamal Ata Türk.

Yığışıb cəm olaraq diddilər Osmanlını,
Min yerə parçalayıb ütdülər Osmanlını,
Elə zənn eylədilər ötdülər Osmanlını,
Sanaraq qul sayağı etdilər Osmanlını,
Millətə oldu çıraq–Mustafa Kamal Ata Türk,
Açdı tarixə varaq–Mustafa Kamal AtaTürk.

Gah rus, gah ingilis, gah da fransız gəldi,
Yurdu ram eyləməyə neçə amansız gəldi?
Dövlətə xain çıxan erməni qansız gəldi,
Yağlı kökə arayan bir çox imansız gəldi,
Xalqı xilas elədi–Mustafa Kamal Ata Türk,
Millətə hür dilədi–Mustafa Kamal Ata Türk.

O ki, türk dünyasının özünə Günəş oldu,
Yaralı torpağının könlünə atəş oldu,
Biçdi düşmənlərini–yerində küləş oldu,
Önündə yağıları hey tökülüb qəş oldu,
Aldı silahı ələ–Mustafa Kamal Ata Türk,
Xəbəri düşdü elə–Mustafa Kamal Ata Türk.

Ya Vətən, ya Bayraq dedi, atıldı savaşa,
Son qoydu ana, bacı gözündəki qanlı yaşa,
Əymədi millətini vermədi rəvac təlaşa,
Tökdü ərlər qanını kişi təki dağa, daşa,
Oldu millətə çıraq–Mustafa Kamal Ata Türk,

Açdı tarixə varaq–Mustafa Kamal Ata Türk.

O türkün namusunu qoymadı yensin ayağa,
O böyük tarixini vermədi ensin ayağa,
Döndü qara dənizin sinəsi bir mayağa,
Gətirdi qüdrətiylə şan və şərəf bayrağa,
Titrətdi Avropanı–Mustafa Kamal Ata Türk,
Sandı Vətəni canı–Mustafa Kamal Ata Türk.

Kəsdi Xaç yürüşünün qarşısını qüdrət ilən,
Getdi düşmən önünə pələng kimi həddət ilən,
Şərəfi dünyaya düşdü elə bir vüsət ilən,
Qaldı həqqi sevənin sinəsində izzət ilən,
İslama nur çilədi–Mustafa Kamal Ata Türk,
Yaraları bələdi–Mustafa Kamal Ata Türk.

Döndü Çanaqqalanın döyüşü bir dastana,
Düşdü yağıların ürəyi zimistana,
Osmanlı torpağını çevirdi gülüstana,
Vermədi xəzan gələ baharında bostana,
Ərdi, türk övladına–Mustafa Kamal Ata Türk,
Çatdı Ata adına–Mustafa Kamal Ata Türk.

O Fərid Sultanı da qoymadı çöksün yada,
Olmamaqçın təslim atdı özünü oda,
Dedi:-«tək taxtına yox, bu Vətənə bir qada»,
Yetdi vaxtında igid millətinə imdada,
Elə işıq oldu–Mustafa Kamal Ata Türk,
Yurda aşiq oldu–Mustafa Kamal Ata Türk.

Şadiman, bu igidi vəsf eləyər zamanlar,
Onu səcdəyə gələr haqq arayan imanlar,
Gülər tarix adına, edər ona peymanlar,
Hələ hər gün doğular bu şərəfə fərmanlar…
Anadan təkdi belə–Mustafa Kamal Ata Türk,
Doğmayıb ana hələ–Mustafa Kamal Ata Türk!...
19. 05. 2004

## EY BÖYÜK ŞAİRİM

*İstiqlal şairimiz Əhməd Cavadın ruhuna!*

Elə yaşamalı həyatda insan…
Dünyadan köçəndə yeri görünsün.
Onun yoxluğundan xəbər versin an,
Adamlar içində diri görünsün.

Yüz illər keçsə də əməli qalsın,
Adına baş əysin yaxınlar, yadlar.
Ürəklər içində zirvəni alsın,
Çün həyatda qalır layiqli adlar.

Dirikən ölülər çoxdu dünyada,
Varlığı zəhərli kol-kosa bənzər.
Var ikən elə bil yoxdu dünyada,
İçi qanla dolu bir tasa bənzər.

Sən ey böyük şair, Vətən aşiqi,
Ölükən dirisən, ruhun ucadı.
Adınla nur saçır haqqın işığı,
Hər misran, hər sözün Rəbbə bacadı.

Sən «Göygöl» şerinlə suçlandın bir vaxt,
Şerin də adıntək uludu indi.
Etdisə ömrünü zalımlar bədbaxt,
Amalın istiqlal yoludur indi.

Onlar ölü idi, sağ ola-ola,
Səninsə dirilik haqqın əbədi.
Şairim, qandalı vurdular qola,
Sağ ikən ölünün qandalı nədi?

İndi də paxıllıq edirlər sənə,
Çünki himnimizdə yaşayır adın.
Hər misran, hər sözün, özün təntənə,
Əbədi yaşardı təbi ustadın.

Ömrünü qırdılar qəlbi kösövlər,
Qanında, canında istiqlal vardı,
Ürəyi kir ilə min cürə növlər,
Təbli həyatını əzaba sardı.

Cisminlə yox ikən, ruhunla varsan,
Adınla Vətəndə dirisən, şair.
Ziyasan, işıqsan, haqqa vüqarsan,
Millətin qeyrətli ərisən, şair.

Sağlığında ölü çoxu həyatda…
Əbədi ölməzlik qazanıb getdin.
Hər kəs qala bilməz əbədiyyatda,
Sən bunu dəhşətli zamanda etdin!…

Ey böyük şairim, ey Əhməd Cavad,
Sənin qeyrətinə baş əyirəm mən.
Vicdanı olana əzizdir bu ad,
Sənintək ucalmaq istəyirəm mən.
16. 04. 2003

**NİYƏ ŞAİR DOĞDUN MƏNİ, AY ANA?**

Niyə şair doğdun məni, ay ana?
Niyə hamı təki olmadım mən də?

Girir bu ürəyim gündə min dona,
Batır duyğularım dumanda, çəndə.

Alışan könlümə sazaq gəzirəm,
Onun yanğıların soyutmaq üçün.
Mən özüm özümdən uzaq gəzirəm,
Bu dəli ilhamı ovutmaq üçün!

Niyə şair doğdun məni, ay ana?
Heç yerdə özümə məkan tapmıram.
Canım oda salıb məni, ay ana,
Oddan qurtulmağa imkan tapmıram.

Hamının qəm yükü sinəmdə yatır,
Bu ağır dərdlərə dözə bilmirəm.
Fəryadım içimdə boğulur, batır,
Könlü qəm əlindən üzə bilmirəm.

Niyə şair doğdun məni, ay ana?
Qəlbə divan tutur soyuq baxışlar.
Mən göllər pərisi, didərgin sona,
Dondurur sinəmi payızlar, qışlar.

Hamıdan soyuqluq, ögeylik gördüm,
Heç yerdə özümü tapa bilmədim.
Hey tale atımı sağ-sola sürdüm,
Yolum yoxuş oldu qopa bilmədim.

Niyə şair doğdun məni, ay ana?
Bu ağrı-acını çəkə bilmirəm.
Vallah, həyatımdan doymuşam cana,
Sinəmdən məlalı tökə bilmirəm.

Məni də ilhamsız doğaydın sən də,
Dünyaya hamıtək baxa biləydim.
Təbimi beşikdə boğaydın sən də,
Hamıtək ağ günə çıxa biləydim.

Aləmin qəm yükün çəkən könlümü,
Qəmlərin əlindən ala bilmədim.
Bütün kainatda səkən könlümü…
Tutub ürəyimə sala bilmədim!

Niyə şair doğdun məni, ay ana?
Doğulduğum günüm yalan olaydı.
Solaydı ömrümün dəni, ay ana?
Şadiman büsbütün talan olaydı.

6. 03. 2003

**ÇƏKİL GET, QARA BULUD**

Çəkil get, qara bulud, qəlbə divan eləmə,
Al sabahın sinəsin qəmə ünvan eləmə.

Duyğularım gah göydə, gah yerdə avazlanır,
Ürəyimdə dünyanın min bir dərdi yazlanır,
Kədər mənə ərk edir, bu sinəmdə nazlanır,
Ruhun zənguləsinə təbim yenə sazlanır,
Beyitlərin içində misralar pərvazlanır…
Çəkil get, qara bulud, könlü xarab eləmə,
Mənim fəryadlarıma iblistək tab eləmə.

Yenə açdın köksünü, bağrından nə ah gəlir?!
Sübhün könlündən qopub yurduma sabah gəlir,
Hər sabahın içində səvab və günah gəlir…
Həm yerdə, həm göylərdə ucada Allah gəlir!…
Çəkil get, qara bulud, ərşi aha bürümə,
O mələk küləkləri, gəl arxanca sürümə.

Bu payız səhərində tök ətəyindən daşı,
Təb məni havalayıb, dolub könlümün başı,
Yerdə, göydə tapmıram ruhuma can sirdaşı!…
Elə bilmə fələyin felinə oldum naşı,
Çəkil get, qara bulud, gurşadını ələmə,
Fəqanımı isladıb göz yaşıma bələmə.

Ağlayan duyğulara yer tapmıram gizləyim,
Başına sığal çəkim, elə hey əzizləyim,
Götür üzdən çadranı ilhamla dənizləyim,
Ürəyimi qüssədə, kədərdən təmizləyim,
Çəkil get, qara  bulud, sübhümüz xar olmasın,
Təlatümlü varlığım ağrıya yar olmasın.

Küləklərin Xəzərin tellərin daraqlayar,
Duyğularım təbimin kitabın varaqlayar,
Sən gələndə asiman tufanı yaraqlayar,
Bu divanə ürəyim bir sevda soraqlayar…
Çəkil get, qara bulud, qəmimə əl eləmə,
Könül qapısın açıb həsrətə gəl, eləmə.

Şadimanın ağrısı yeri-göyü tutmayır,
Sinəmdən qopan nalə səmalara çatmayır,
Arzularım bir hovur qəlb içində yatmayır,
İntəhasız kədərin sədaları batmayır,
Çəkil get, qara bulud, dünya içi zülümdü,
Ah olan içərimdi, sənə baxan çölümdü!…
15. X1.2003 Pirallahı

## TİTRƏYƏN ŞAM

Başımın üstündə dağ təki ağır dam,

Masamın üstündə tənha qızılgül və titrək şam.
Qapqara çadraya bürünmüş məsum axşam.
Könlüm yaz buludu tək dopdolu,
Enişli, yoxuşlu bu tale yolu.
Titrəyir içimdə niskillərim,
Açılmayan müşküllərim.

Könlüm sevda zindanında məhbus tək,
Acılar üstümə qəm tökür ətək-ətək,
Sıxılıram gecənin tənhalığından,
Bir ilə dönür an,
Qəlbim atəşlərdən büryan,
Nə əhvalımı soran var,
Nə könlümü aran var,
Nə də halıma qalan,
Ürək büsbütün talan,
İşığı keçmiş şam da ömrü başa yetirmiş,
Qəmli həyat dastanını bitirmiş,
Mənsə həyatla çarpışmada,
İlhamla pıçıllaşmada.
Bu da könlümə Tanrıdan paydır,
Tufanı bitməz bəxtimə vaydır!
Hey döyəcləyir məni acı küləklərlə,
Yağmuru usanmaz fələklərlə.
Allahımdan aman diləməz,
Sabahıma duman diləməz,
Titrəyən göz yaşlarımla qol-boyun,

Bitib-tükənməz bu oyun.
Mürəkkəbi qurumuş qələmimi,
İsladıram göz yaşımla,
Təlaşdayam ağrılı başımla,
Rüzgarı susmuş könlüm gərgin,
Qəmlərdən usanmış həyatım didərgin.
Sabahımın ümidləri yollarda veyil,

Ömrüm ki, bu qovğalardan qurtaran deyil.
Kəsib qapımın ağzını axşam,
Masamın üstündə işığı keçmiş şam...

6.11.1994

**«YANIQ KƏRƏM»***

«Yanıq Kərəm» –
«Əsli, Kərəm» dastanın qəm havası,
İki qəlbin İlahiyə eşq duası,
İki canın ovsunlanmış dərd yuvası,
Dövranına, zamanına can davası…!

«Yanıq Kərəm» –
Sevdalanmış könüllərin müsibəti,
Yandı ürək həm aşkarda, həm xəlvəti,
Göz yaşıyla axıb dolan qan səbəti,
İki gəncin bəxti qara məhəbbəti.

«Yanıq Kərəm» –
Məhəbbətin Rəbb sevdası, cana qida,
Səadəti qara gəlmiş iki qəlbdən qopan nida.
Barmaqları sarı simə haray salan dəli sevda,
İki gəncin alışdığı eşqə vida…

«Yanıq Kərəm » –
«Əsli, Kərəm» dastanın can fəryadı,
Bir millətin iki dində nalə dadı,
O xaçpərəst Albanyanın İslam adı,
İsa (s) ilə Mühəmmədin(s) Rəbb imdadı!…

«Yanıq Kərəm» –
Əsrlərin o tayında din savaşı,
Bir millətin gözlərindən axan yaşı,
İslamını tutan Kərəm dərdə naşı.
O xaçpərəst Əsli ilə can sirdaşı.

«Yanıq Kərəm» –
İki gəncin bir məhəbbət sinfonyası,
Bir tayfanın iki dində hicran yası,
Kərəm deyib yanan qızın qız həyası,
Külə dönən iki gəncə dövran ası.

«Yanıq Kərəm» –
Əsrlərin o tayının vicdan ahı,
Dinə müti o keşişin din günahı,
Lal eyləyib bu müsibət al sabahı,
Fəryad edir yerin, göyün tək Allahı…

«Yanıq Kərəm » –

Sarı simə toxunaraq dinsin sazlar,
Oynamaqçın, ay adamlar, çox avazlar,
Bu havanın sədasıyla qaynamazlar,
Bu faciə havasında oynamazlar!…
Bu faciə havasında oynamazlar!…
12. X1. 2005

*(*  Şe'rdə "Əsli və Kərəm" dastanından götürülmüş saz havasından söhbət gedir.)*

**TƏNHA QADIN**

Sənin bir halına yananın yoxmu?
Ömrünü, gününü ananın yoxmu?
Bu fəna bəxtini qananın yoxmu?
Alnına talesiz yazılıb adın,
Ay gözükölgəli, ay tənha qadın.

Səndən İlahi də çeviribmi üz?
Olurmu fələyin yolları heç düz?
Bu acı məlalın gəl bağrını üz
Göyün nəfəsini kəsib fəryadın,
Ay gözükölgəli, ay tənha qadın.

Niyə bu dynyaya gəlmisən nalan?
Ömür ötür keçir büsbütün talan,
Könlün qan ağlayır, gülüşün yalan...
Duya bildinmi heç həyatın dadın?
Ay gözükölgəli, ay tənha qadın.

Sənin addımına hey göz qoyarlar,
Qəlbinə dəyərlər, könlü oyarlar,
O qara bəxtini nə vaxt duyarlar?
Yetməyir heç kəsə niyə imdadın?
Ay gözükölgəli, ay tənha qadın.

Axır göz yaşları niyə içinə?

Ömrün bu tək evdə necə keçinə?
Qəlb cavab axtarır niyə, neyçinə?
Qapını açırmı yaxının, yadın?
Ay gözükölgəli, ay tənha qadın.

Gecələr sinəndən ahın yüksələr,
Evin divarları üstünə gələr,
Ürəyin hər səsə, hər ünə mələr!
Soyuq bir təsəllin varsa övladın...
Ay gözükölgəli, ay tənha qadın.

Qorxarsan işığı keçirəsən bir,
Eşqin, sevgin, hissin gecənə qəsir,
Xəyalın çin olmaz vüsala əsir,
Bayquşlar bəzəyər yurdun bərbadın,
Ay gözükölgəli, ay tənha qadın.

Sənə hansı qara ləkə yaxılmaz?
Üzünə bir təmiz eşqlə baxılmaz,
Bəxtin bağlı yolu niyə yıxılmaz?
Boğar göz yaşların göyün gurşadın,
Ay gözükölgəli, ay tənha qadın.

Köçüb yar-yoldaşın xəyalınamı?
Əllərin yetməyir vüsalınamı?
Bir yanan tapılıb de halınamı?
Qapında nə işi eviabadın?
Ay gözükölgəli, ay tənha qadın.

Fələk taleyinə niyə qəm yazıb?
Bəxtinmi gecikib, yollarmı azıb?
Acı dərdlərinə bir məzar qazıb
Dadasan dünyanın şadlığın, şadın,
Ay gözükölgəli, ay tənha qadın.

Şadiman gözündə görür qəm izi,
Ömrün tufanında solan bənizi,
Ayıq ol! Batırar həyat dənizi...
Yetənə yanmasın qoy könül odun,
Ay gözükölgəli, ay tənha qadın.
Ay gözükölgəli, ay tənha qadın.

14.08.2001.

## İKİ DAMLA YAŞ

Gözümdən iki damla yaş
Axdı ağ vərəq üstə.
Ağ vərəq də könlüm təki oldu xəstə.
Ölən anlarımı yudu, tabutladı,
Ümidlərimi qatladı.
İki damla yaş...
Canıma dedi sirdaş,
Məni tənhalığa apardı,
İçimdə tufan qopardı.
Canıma sirdaş olana bax,
Gözümdə yaş olana bax.

17.03.2001.

## İLHAM PƏRİSİ

Ah, ilham pərisi, bu zülmət gecə,
Könlümün evinə gəlmisən necə?
Hissim, həyacanım yenə əlində,
İncəlik, lətiflik tuti dilində,
Dadlı duyğuların qəlbimi bəzər,
Ruhumun bağında mələyə bənzər.
Büküb ürəyimi o atəşinə,
Dönmüsən bəxtimin sən günəşinə.

Ah, ilham pərisi, bu gecə yarı,
Gətirdin könlümə əhdi-ilqarı,

Bağında açılan çiçəklərinlə,
Bağrımı odlayan diləklərinlə,
Sarmısan canımı sevgili yar tək,
Qoynu ətir qoxan nurlu bahar tək.
Ürək süfrəsinə sevda düzürsən,
Könül qədəhinə duyğu süzürsən.

Ah, ilham pərisi, təndə can varkən,
Bu vəfalı dünyam könlümə yarkən,
Gəl oynat qəlbimin duyğularını,
Unudaq cahanın qayğılarını.
Coşqun buludlar tək dolub-boşalaq,
Bu qara zülməti edək daş-qalaq,
Uçaq asimana mələklər sayaq,
Yuxulasın kainat biz isə oyaq!..

Ah, ilham pərisi, hardan qaçmısan?
Könlümün qapısın necə açmısan?
Mən ki, qol-boyundum yuxularımla,
Qəlbi əsir edən qorxularımla.
İzin ver, bağrıma basım qoy səni,
Yenə təlatümə gətirdin məni.
Çıxaq duyğuların seyrangahına,
Dönək hər sətirin yanan ahına!

Ah, ilham pərisi, bu könül odam,
Sənsiz mən də orda qəribəm, yadam.
Sənin atəşinə yanar ocağım,
Duyğuyla sevgiylə dolu qucağım,
Səni uca Tanrım göndərib mənə.
Könlümün qapısın göstərib sənə,
Eşqin ürəyimin içində bitər,
Səninçin ölürəm mən səndən betər.

Ah, ilham pərisi, bu gecə vaxtı,

Qurmusan evimin ağzında taxtı,
Qapımı ahəstə elə açırsan,
Qaranlıq içində işıq saçırsan.
Doğub göylərində həyat günəşi,
Düşüb ayağına zülmətin nəşi,
Bütün vücudumu almısan ələ,
Tutmuşam səninlə yenə əl-ələ.

Ah, ilham pərisi, könlümü qopar,
Məni də özünlə dünyadan apar,
Birgə qanad açım, uçum səninlə,
Ey incə mələyim, gəl məni dinlə,
Ağrıyan könlümə bir yuva ara,
Qoyum ürəyimi əbədi ora!...
Rahatlıq tapmadım mənki bir dəm də,
Gəzdirə bilmirəm onu sinəmdə.

Ah, ilham pərisi, baxışın incə,
Ötməsin axşamın anları becə.
Dönək gecəmizin təranəsinə,
Bir şirinlik qataq incə səsinə.
Darayaq zülmətin qara telini,
Qucaq nurlu ayın incə belini.
Ürəyi oynasın ötən anın da,
Qoy həyat qaynasın donan qanında!

Ah, ilham pərisi, gəlişin təzə,
Bəzə ürəyimi, əl-alvan bəzə.
Gedək mehman olaq vüsal bağına,
Qalxaq duyğuların ucalığına.
Silək gözlərimdən niskili, qəmi,
Şadlığa bələnsin könül aləmi.
Yetir Şadimanın qəlbini dada,
Bundan da gözəl şey nədir dünyada?!..

26.09.1999

## QƏRİBƏM

Bu adamla dolu dünya mənə yad,
Çəkir ürəyimin fəqanları dad,
Bu xərabə könlüm olmadı abad,
Səadət barımı iblislər dərib,
Allah, bu dünyada qəribəm, qərib.

Gözümdə yaşlarım şimşək tək çaxır,
Fələyin qəm seli üstümdən axır,
Heç acı dərdlərə olmadı axır.
Könlümü neçə yol qəm yuyub sərib,
Allah, bu dünyada qəribəm, qərib.

Bəşər ram olubdu pis niyyətlərə,
Boğazdan yuxarı ibadətlərə!
Ürək uyuşmayır yad sifətlərə,
Zülümlər bəxtimin qolların gərib,
Allah, bu dünyada qəribəm, qərib.

Fələk kədərimlə giribdi bəhsə,
Tutub ürəyimi salıb qəfəsə,
Mənə dərd verməkçin düşüb həvəsə,
Yığıb əzabları qəlbə göndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Canım ağılımdan olubdu ası,
O da ürəyimə qurubdu yası,
Taleyin əlində qəm dolu tası,
Könlümə cahanın ahın əndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Ağlar ürəyimin ahı gileyə,
Dönüb mənim təki bir qəmli neyə.

Şadiman, bilmirəm,bu fələk niyə,
Viranə bəxtimi yoldan döndərib?
Allah, bu dünyada qəribəm, qərib.
3.02.2000. Pirallahi

## QURUMAYIR NƏM

Mənim əzablarım içimdə gəzir,
O sərt addımlarla könlümü əzir.
Qəlbimdən başlayır dünyanın qəmi,
dərdə batırmışam bütün aləmi.
Mənimlə doğulub yəqin ki, bu qəm,
Odur ki, gözümdən qurumayır nəm.
Dəniz ürəyimdə qopub fırtına,
Keçib dalğaların yeddi qatına.
Ağlar sinəmdəki bütün duyğular,
Umar bu narahat qəlbdən sayğılar,
Hər şeyin ağrısın çəkir ürəyim,
Bilmirəm onunla, Allah, neyləyim?
Necə narahatdı mənim tək hər dəm,
Odur ki, gözümdən qurumayır nəm?!...
19.02.2000. Gəmidə

## BAXA BİLMİRƏM

Mən ürəyimdə tufan dunyanın haqq səsiyəm,
Bütün Yer kürəsinin yanıqlı naləsiyəm,
Taleyimin əlində həyat piyaləsiyəm,
Düşüb bir gün torpağa parça-parça olacam,
Cahanın bağırında fəryad təki qalacam.

Yenə də duyğularım köpürür sellər təki,
Könlüm elə ağlayır yanıqlı dillər təki,
Sinə içində atəş bozarıb küllər təki,
Ayrıla bilmirəm heç bu sevda yuxusundan,

daha sevə bilmirəm həsrətin qorxusundan...

Məndə atəşi boldu gur yanan ocaqların,
Bağrımda laylası var ötüb keçən çağların,
Divanəsi olmuşam bu ürəyim ağların!
Xəyallarım öcəşir sevda dənizlərində,
Anlarım itir-batır həyatın izlərində.

Kainatın köksündə qovruluram kürrə tək,
Vurnuxuram dəryada yolun azmış bərə tək,
Göyün bağrından qopub düşdüm yerə zərrə tək,
Odur ki, çırpınıram Göylə Yer arasında,
Göydə ulduzum parlar ulduzlar sırasında...

Mən boş yerə qələmi könlə əsir etmədim,
İlhamın qapısına qəlb coşmasa getmədim,
Doğulub haqq aradım, əfsus haqqa yetmədim,
Duyğularım qartal tək qayanı yuva edər,
Dil könlümün eşqinə Allaha dua edər.

Bir həqiqət quşuyam həyatın bağçasında,
Diləklərim şan-şandır bu könül boğçasında,
Qopub ürəyim təndən qalıb can taxçasında,
Min illik bir palıdam tufanlara dözürəm,
Dəryaların dibində bir qəvvasam üzürəm.

Siz məni aramayın adamların içində,
Hiylə, fitnə, qəm dolu bu damların içində,
Min cürə ləzzət alan bu kamların içində,
Bir gecəlik işığı bu şamların içində
Titrədir vücudumu ürəyimin nərəsi,
Qəlbi özüylə bahəm fırladır Yer kürrəsi.

Dolub bağrım içinə Yerin, Göyün atəşi,
Sinəmin alovları ram eyləyir Günəşi,

Tapmayır məzarını heç fəraqımın nəşi,
Boğulubdu zülmlər zamanın göz yaşında!
Cahanın acıları ürəyimin başında.

Şadiman ki, dünyadan elə-belə keçmədi,
Duyğu çeşmələrindən boş yerə su içmədi,
Bu ilham da səbəbsiz ürəyimi seçmədi,
İlahinin hökmündən çıxa bilmirəm neylim?
Bu dünyaya hamı tək baxa bilmirəm neylim?
13.11.2001

## DƏLİ ÜRƏK

Tutub varlığımı qəmə çuğluyan,
Ey sevincdən gülən, dərddən ağlayan,
Alovla, atəşlə könül dağlayan,
Qəlbi incilərlə sərraf bağlayan,
Qaynar bulaqlar tək coşan, çağlayan,
İnci dəryasından çələng bağlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Bu sakit qəlbimi sözlə oxlayan,
Çılğın xəyalları yoldan saxlayan,
Hər kiçik kəlməni günlə yoxlayan,
Haqsızlıq görəndə dözmüb laxlayan,
İlham otağında sözlə yuxlayan,
Şeir gülzarından güllər qoxlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Xəyal körfəzində üzgüçü olur,
Bahar tək açılır, payız tək solur,

Ümid girdabından təsəlli alır,
Məni söz pərimin çölünə salır,
Əngin səmalar tək xəyala dalır,
Eşqi kaman olur şadlıqlar çalır,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Bu odlu torpaqda odlara dönür,
Qartal asimanın köksünə enir,
Yalçın qayaların başına sinir,
Röyalar uçanda quş tək diksnir,
Qaynar təbiətə susmayır, dinir,
Arzusu daşanda xəyalı sönür,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Alov dilləri tək şölələr çəkər,
Könül bulağında sona tək səkər,
İlhamın barını ortaya tökər,
Duyğu bağçasında gövhərlər əkər,
Kədərin evini şadlıqla sökər,
Sevincdən bir qəsir, bir saray tikər,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

Gur şəlalələr tək zirvədən içər,
Hər acı söz-sovu qəzəblə biçər,
Şadlığın evini pak mənzil seçər,
Enişdən, yoxuşdan əzimlə keçər,
O söz boğçasının ağzını açar,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

4 aprel 1972. Siyəzən

**DOLAN VAXTI**

Könül göyün bulud alar,
Şimşək ora yolun salar,
Ümidlərim tənha qalar,
Bürüyər çən, duman baxtı,
Ürəyimin dolan vaxtı.

Diləklərim çaxıb keçər,
Bağrım başın yaxıb keçər,
Bəxt ulduzum axıb keçər,
Kədər qəlbdə qurar taxtı,
Ürəyimin dolan vaxtı.

Kül altında közü neynim?
Qəlb içində sözü neynim?
Çapdı göyə, yerə beynim,
Min bir xəyal qəlbdən axdı,
Ürəyimin dolan vaxtı.

Gözdə yaşı dərya yudu,
Çeşmələrin köksün oydu,
Duyğuları başsız qoydu,
Şimşəklər tək könlüm çaxdı,
Ürəyimin dolan vaxtı.

Bu sinəmdə söz göyərdi,
Kül altında köz göyərdi,
Misralar göz-göz göyərdi,
Vərəqlərim uddu vaxtı,
Ürəyimin dolan vaxtı.

Şadimana həyat odu,
Bir Günəşdi sönməz odu,
Nalə çəkən könül udu,
Bu sinəmin için yaxdı,

Ürəyimin dolan vaxtı.

6.02.2001

**ÜRƏK NİYƏ AĞRIYIRSAN?**

Nə  dolmusan qəmlər ilə,
Köksün için dağlayırsan.
Dərdi-səri bilə-bilə,
Ürək, niyə ağrıyırsan?

Toysuz, vaysız bir günmü var?
Bir açılan düyünmü var?
Yorulmayan beyinmi var?
Ürək, niyə ağrıyırsan?

Sözə sadiq çıxan da var,
Nahaqdan ev yıxan da var,
Xain gözlə baxan da var,
Ürək, niyə ağrıyırsan?

Gülmək də var, ağlamaq da,
Dərddən qubar bağlamaq da,
Bəzən coşub-çağlamaq da,
Ürək, niyə ağrıyırsan?

Yaxşı sözün yaman olar,
Ömründə çən-duman olar,
Səadətin güman olar,
Ürək, niyə ağrıyırsan?

İş hər gün düz gətirərmi?
Namərd haqqı yetirərmi?
Mərd mərdliyin bitirərmi?
Ürək, niyə ağrıyırsan?

Çox deyərlər qara–ağa,
Çox dözərlər min bir dağa,
Qəlbə leysan yağa-yağa,
Ürək, niyə ağrıyırsan?

Vaxt olar ki, tale gülər,
Sevinc açar, qəm bükülər,
Göydən yerə nur tökülər,
Ürək, niyə ağrıyırsan?

Şadimandan ibrət elə,
Onun dərdi gəlməz dilə,
Sən bunları bilə-bilə

Ürək, niyə ağrıyırsan?
30.07.1985/ Yasamal

## MAVİ YUXULARIM

Gecələr qara örtüklü fələklər,
Mavi donlu mələklər,
Mavi tüllər çəkir gözlərimə,
Alovdan don biçir sözlərimə…
Alır ağuşuna könlümü diləklər,
Sanki bəmbəyaz küləklər,
Mavi yuxular,
bağrımı didən qorxular,
Atır məni kainatın izlərinə,
Batıram fikir dənizlərinə,
Göydə durnalar təki,
Vücudum ən yüngül çəki,
Pənbə buludların üzəriylə uçuram,
Gah röyadan və yalandan qaçıram.
Gah da əlçatmaz, ünyetməz,
Bu sehirin sonu bitməz
ulduzları qucuram,
O qapqara buludlara acıram,
Sanki ayrı bir dünyanın,
Gözəlliklə dolu röyanın,
Qapılarını açır,
Günəş təki nur saçır
Mavi donlu mələklər üzümə,

Bütün məmləkətlər mavi şəkildə
görünür gözümə.
İçimdə acılarla dolu yasım,
Əynimdə mavi donlu libasım,
Nalə çəkən könül sazım,
Üzümə gülən alın yazım.
Qansız, savaşsız, ölümsüz,
Divansız, sərhədsiz, bölümsüz,
Bir səyyarədə dolaşıram,
Bu dünyadan çəkdiklərimi,
Vərəqlərə tökdüklərimi…
Mavi donlu mələklərə danışıram,
Bu atəşlə alışıram.
Ayrılmaq istəmirəm,
Heç kəsə demirəm,
Mavi yuxuların şirinliyindən,
Vücudumu bir heyrət bürüyür,
Və bu heyrət buzları əriyir,-
Bu sehrin dərinliyindən.
Gecələr mavi paltarımda,
İçimdə ilham adlı yatarım da.
Mavi donlu mələklərlə,
Məni ovsunlayan fələklərlə

Tanrıya üz tuturam,
Haqqın dərgahına çatıram!..
Zaman naləsiz, ahsız,
Ruhlar günahsız,
Ruhlar günahkar,
Etdiklərini edə bilmir inkar,
Küskün-küskün ətrafımda dolaşır,
Mənimlə pıçıldaşır.
Ömrün dönüklüyündən,
Cəzaların böyüklüyündən,
Dünyanın faniliyindən söz açırlar…
Önümdə o yan, bu yana qaçırlar!
Məndə mavi yuxularımla,
İçimi didən qorxularımla,
Dərdləşirəm onlarla,
Min bir dərdli canlarla!
Beləcə səhər açılır,
Nur saçılır,
Otağıma al günəş dolur.
Mavi donlu mələklər,
İçimə sığınmış diləklər-
Harasa tələsən qaranlıqda solur-
Mavi yuxularımla,
Ölümdən ağır qorxularımla,
Bir göz qırpımında yox olur…
Əzab verən min bir xülya,
Qanla dolu dünya,
Sinəmə ox olur…
05.12.1992

**OXUYUR SEVDA QUŞU CANIMDA**

Könüldə duyğularım oynayır,
Qəlbimin alovuyla qaynayır,
Niyə bəs ürəyimlə oynayır?
Onun öz sevgisi var qanımda,
Oxuyur sevda quşu canımda.

Gecəmin zülmətinə çıraqdır,
Ağrıdan, əzablardan iraqdır,
Eşqimin ülfətindən soraqdır,
Mən onu görməmişəm yanımda,
Oxuyur sevda quşu canımda.

Vəfalı sevgili yar baratdı,
Bu yarın səadəti həyatdı,
Kim ki, bu dünyada eşqə çatdı-
İlahi diləyi var anımda,
Oxuyur sevda quşu canımda.

Şadiman ağrıya şan verməsin,

Könlünü ona nişan verməsin,
Əzrayıl gəlsə də can verməsin,
Tanrıdan mükafatdı canım da!
Oxuyur sevda quşu canımda.
14.01.2007-Pirallahı

**BİR SƏN OL**

Bir sən ol, mən olum, bir uçuq kaha,
Heç nə istəmirəm Tanrıdan daha!
Səhər yelləri tək, bəxt cilvələnsin,
Ey yar, ömrümüzə şadlıq ələnsin.
Nə sərvət, nə dövlət, nə pul, nə para,
Heç zaman tay olmaz əhdə, ilqara.
Təmizliyə bağlı saf mənəviyyat,
Onun sayəsində bərqərar həyat.
Var, dövlət isidə bilməz ürəyi,
Sevgidir qəlblərin ürkək mələyi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Düşüb var dərdinə batmayaq aha.
Yansın, şölələnsin könül şamımız,
Qalmasın ürəkdə həyat kamımız.
Ömür yollarında sevgi bələdçi,
Ona yuva olsun könlümün içi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Bu həqiqi sevgi yetsin Allaha!...
19.02.2000. Gəmidə

**AMAN YARIM**

Dünya gözəl, sevgi şirin, ömür az,
Sən olmusan həyatıma bahar, yaz,
Sevənlərə çox yaraşır işvə, naz,
Kədər nədir, bilməyəsən, gül, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Heç sevdadan doyan varmı dünyada?
Eşqimizə heyran olub dünya da.
Axtarmayım gül üzünü röyada,
Könlümə gəl hər dərdimi bil, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Saf ürəkdir məhəbbətin adası,
Təmiz eşqdir yaşamağın faydası,
Xiffət çəkmək sevənlərin qaydası,
Eşq nəğməsin sənə söylər dil, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Candan əziz sandım səni canıma,
Mələksima, nur verirsən anıma,
Durma gendə bir gəl mənim yanıma,
Cilvələnir ürəyimdə tel, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Şadimandan üz çevirmə, amandı,
Ayrılıq ki, ölümdən də yamandı,
Heç unutma dilindəki o andı,
Alışdırıb qəlbi etmə kül yarım,
Aman yarım, gözəl yarım, gül yarım.
18.03.2001

## VAR EŞQİDƏ

Sən ey eşqə edən cəfa,
Nə heyrətlər var eşqidə?
Əgər qılsan ona vəfa,
Səadətlər var eşqidə.

Hicrə bulma rəva canı,
Onun ki, heç yox ünvanı,

Başlar könlə qəm divanı,
Müsibətlər var eşqidə.

Ömür elə ötür yel tək,
Gedən gedər tutma el tək,
Qəlbdən qəlbə yol sal tel tək,
Hekayətlər var eşqidə.

Ötürmə heç zamanı ki,
Sev bir mələk simanı ki,
Unutma din-imanı ki,
İbadətlər var eşqidə.

Uyan sevgi dərgahına,
Şükür eylər Allahına,
Səbəb olma qəlb ahına,
İtaətlər var eşqidə.

Sevda çağlar bəhərlərdən,
Gecə ağlar qəhərlərdən,
Həsrət gülər səhərlərdən,
Əziyyətlər var eşqidə.

Qəlbdə ahlar zəban olar,
Qəm ayağa daban olar,
Ürək elə sərban olar...
Nə zillətlər var eşqidə?!

Ey Şadiman, bu nə sevda?
Canı ona eylə fəda,
Tən gəlməyir eşqlə əda,
Məhəbbətlər var eşqidə.

10.11.2001

**SƏN MƏNİM KÖNLÜMÜN**

## MÖHNƏT YUVASI…

Sən mənim könlümün möhnət yuvası,
İçimdə ağlayan günahlarımsan.
Dilimin ovunmaz hicran duası,
Həsrətə tuş olmuş sabahlarımsan.

Qara gözlərimin yaşından doğan,
Dünyanı çalxadan dəryalarımsan.
Gecələr könlümü yataqda boğan,
Vüsala minnətçi röyalarımsan.

Mən simurq quşuna dönüb axşamlar,
Pəncərən önündə gizli səkərəm.
Qəfil otağında sönəndə şamlar,
Mən də göz yaşımla hicran əkərəm.

Səni ürəyimə buraxan gündən,
Artır, azalmır ki, işgəncələrim.
Bəxtimdə açılmaz min bir düyündən
Hönkürür mənimlə bu gecələrim.

Bir azca hərarət oduna möhtac,
Əfsus, ayaz vurmuş istəklərimsən.
Sən mənim dərdinə tapılmaz əlac,
Məzara gömülmüş diləklərimsən…

Hansı bəhanələr gətirim, fələk?
Hicran əzabını sınayanlara.
Cavabsız məktuba çevrilib ürək…
İndi Şadimanı qanayanlara!
01.05.1997

## SEVGİLİM

Sevgilim, könlümü yıxma cəhd ilə,
Demə, sökülləni tikməyə nə var?
Mən sənə bağlandım min bir əhd ilə,
Demə, ayrılığı çəkməyə nə var?

Sənin eşqin ilə zülmətim–səhər,
Ağardır gecənin qara üzünü.
Üzər, sən olmasan, könlümü qəhər,
Qoyma kül olmağa eşqin közünü.

O nurlu çöhrənin ziyalarıyla,
İşığlat ömrümün sabahlarını.
Yuxulu gecəmin röyalarıyla,
Bağışla könlümün günahlarını.
06.04.1997

**O ODLU GÖZLƏRİN KÖNLÜMƏ ATƏŞ,**

O odlu gözlərin könlümə atəş,
Tanrı bu ocağı söndürməydi.
Doğaydı hər səhər zirvədən günəş,
Onu ucalıqdan endirməyəydi.

O yaşıl gözlərin qəlbə min çalar,
Lapdan varlığımı tilsimə salar,
Hərdən bir qərinə xəyala dalar…
Bu xəyal zülmü andırmayadı.

Yar əgər taparsa ürəkdən yarı,
Nədir bu dünyada dünyanın varı?
Tale tufanıyla hicranın qarı-
Yanan qəlbimizi dondurmayaydı.

Sarılıb ilğımtək yanan köksünə,
Bir heykəl yapaydım oddan əksinə,
Çıxıb könülmüzün fələk əksinə,
Qəlbləri hicranla yandırmayadı.
04.08.1996

**YAR, YAR**

Bağçamıza girəsən,
Yar, yar.
Bir dəstə gül dərəsən,
Yar, yar.
Səni candan sevəni,
Yar, yar.
Gül dibində görəsən,
Yar, yar.

Alışdıraq şamları,
Yar, yar.
Nur edək axşamları,
Yar, yar.
Gözdolusu görək hey,
Yar, yar.
Ürəkdəki kamları,
Yar, yar.

Sinəmdə qəmlərim var,
Yar, yar.
Bəbəkdə nəmlərim var,
Yar, yar.
Sənə könüldən barat,
Yar, yar.

Sevgili dəmlərim var,
Yar, yar.

Gülməsin hicranları,
Yar, yar.
Ayırır hey canları,
Yar, yar.
Şadimanın ömrünə
Yar, yar.
Bəxş elə xoş anları,
Yar, yar.
11-12.05.1997

**YADINDAMI?**

Yadındamı o illər?
Eşqlə yanğılı dillər,
Alışardı, yanardı,
Zamanım dayanardı.
Sənsiz dünyam küsərdi,
Ümidimi kəsərdi,
Xəyallarım uçardı,
Tez yanına qaçardı,
Küsüşüb barışardıq,
Od olub alışardıq.

Yadındamı bir səhər?
Aldı könlümü qəhər,
Sənsiz həyat daraldı,
Gözümdə gün qaraldı.
Küləklər sayaq, əsdim,
Görüşünə tələsdim,
Qıvrıldım ilan təki,
Gözüm görmədi səki,
Eşqin çapdı başımda,
Səni gördüm qarşımda.

Yadındamı səadət?
Can tək sevgili həyat,

Könlümüzə yar idi,
Həsrət, vüsal var idi.
Sellər təki coşardıq,
Çeşmələr tək daşardıq.
Bizə dünyada əziz,
Həm duyğulu, həm təmiz,
Saf məhəbbət nəsibmiş,
Üstümüzdə əsibmiş.

Yadındamı o vaxtlar?
Ayrı yanardı baxtlar,
Alışardım oduna,
Heç düşməzdim yadına.
Öz içimdə yanardım,
Səni dünyam sanardım.
Sənsə çəkib özünü,
Yan tutardın üzünü.
Məni oda atardın,
Yuxuları qatardın.

Yadındamı küləklər?
O göy atlı mələklər,
Darayardı telimi,
Qucaqlardı belimi,
Dodağımda gülüşlər,
O xəyali görüşlər...
Yuxumuza gələrdi,
Həsrət dərddən ölərdi.
Səni mənə yar edən,
Bağrımın başın didən,
Yuxumu qısqanardım,
Gizli-gizli yanardım...

Yadındamı, sevgilim?
Sənsiz ağlardı ilim.

Dərd başımdan aşardı,
İçimdə dolaşardı,
Həyat adiləşərdi,
Can gözümdən düşərdi.
Könlüm səni arardı,
Qəlbimi dərd sarardı.
Ağlardım için-için,
Sənin o sevgin üçün,
Demə ki, bu eşqimiz,
Qoymayıb qəlbimdə iz,
Kökü gedib dərinə,
Ürəyimin yerinə,
Sənin sevgin yerləşib,
Əbədi sehirləşib.
15.02.2000

**BİR SƏN OL**

Bir sən ol, mən olum, bir uçuq kaha,
Heç nə istəmirəm Tanrıdan daha!
Səhər yelləri tək, bəxt cilvələnsin,
Ey yar, ömrümüzə şadlıq ələnsin.
Nə sərvət, nə dövlət, nə pul, nə para,
Heç zaman tay olmaz əhdə, ilqara.
Təmizliyə bağlı saf mənəviyyat,
Onun sayəsində bərqərar həyat.
Var, dövlət isidə bilməz ürəyi,
Sevgidir qəlblərin ürkək mələyi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Düşüb var dərdinə batmayaq aha.
Yansın, şöləlønsin könül şamımız,
Qalmasın ürəkdə həyat kamımız.
Ömür yollarında sevgi bələdçi,
Ona yuva olsun könlümün içi.

Bir sən ol, mən olum, bir uçuq kaha,
Bu həqiqi sevgi yetsin Allaha!...
19.02.2000. Gəmidə

**DEDİM, AYRILAQ**

Könlümdə ilahi məhəbbətini,
Qoruya-qoruya, dedim ayrılaq.
Fələkdən bəxtimin səadətini,
Soruya-soruya, dedim ayrılaq.

Əlinin istisi qaldı əlimdə,
Bəlalı sevgimin adı dilimdə,
Uzaqdan, yaxından səni dilim də,
Araya-araya, dedim ayrılaq.

Səni qoruyarkən yad alqışlardan,
Min bir tənələrdən, sərt qarğışlardan,
Könlümə muniskən, pak baxışlardan
Yarıya-yarıya, dedim ayrılaq.

Könlümün könlümə sayğılarını,
Bəlalı eşqimin duyğularını,
Tənha gecələrin uyğularını
Yoruya-yoruya, dedim ayrılaq.

Addımlar sevgimiz bəxt küçəsiylə,
Bizi qovuşduran ümid səsiylə,
Könlüm həsrətinin işgəncəsiylə
Qarıya-qarıya, dedim ayrılaq.

Ürəyim həzin ney, yaralı tütək,
Şirin xanım sızlar sənsiz tənha, tək,
Eşqini könlümə ipəkqurdutək,
Sarıya-sarıya, dedim ayrılaq.

30.11.1989/ Zeynalabdin Tağıyev qəsəbəsi

**MƏNƏ ELƏ GƏLİR Kİ...**

Mənə elə gəlir ki,
Sənindir bu ürək, can.
Mənə elə gəlir ki,
Məni sən yaratmısan.

Mənə elə gəlir ki,
Bu müqəddəs torpağı,
Hər gülşəni, hər dağı,

Adicə bir yarpağı
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki,
Qərinəni, zamanı,
Bu yağışı, dumanı,
Ürəyimdə gümanı
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki,
Göydə uçan quşları,
Sirr yuvası daşları,
Gözlərimdə yaşları,
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki,
Coşub-daşan çağlayan,
Gah gülən, gah ağlayan,
Məni sənə bağlayan,
Eşqi sən yaratmısan!
02.11.1978/ Yasamal

**YUXUMA NİYƏ GƏLMİSƏN?**

Anlaya bilmədim səni,
Açılmayan bir sirmisən.
Ürəyimə çəkib çəni,
Yuxuma niyə gəlmisən?

Düşsə də bu mənə baha,
Batsa da sevgim günaha,
Biz ki, yad olmuşuq daha,
Yuxuma niyə gəlmisən?

Sən özgə bir qəlb aradın,
Kimin telini daradın?
Başqa birinə yaradın,
Yuxuma niyə gəlmisən?

Röyan nəyimə lazımdır?
Bu da bir tale yazımdır?
Verdiyin qəmlər azmıdır?
Yuxuma niyə gəlmisən?

Şirin xanımdan doymusan?
Könlünü darda qoymusan,
Başqa sevdaya uymusan,
Yuxuma niyə gəlmisən?
27.07.1985/ Yasamal

## SƏN MƏNİ HƏR YERDƏ ARAYACAQSAN…

Surətim gözündə güzgü olacaq,
Eşqimlə telini darayacaqsan,
Özündən xəbərsiz gözün dolacaq,
Sən məni hər yerdə arayacaqsan.

Düşmən kəsiləcək sənə ürəyin,
Xatirəm olacaq könül dirəyin,
Didərgin düşəcək eşqin, diləyin,
Mənim xatirəmlə yarıyacaqsan.

Gözündən, könlündən düşəcək həyat,
Yalnız mən olacam bağrına səyyad,
Xəyalım köksündə quracaq busat,
Bu sirri hamıdan qoruyacaqsan.

Mənli günlərini yığıb sinənə,
Dolub boşalsa da qəlb dönə-dönə,
Bu çətin olsa da, əzizim, sənə,
Mənim həsrətimlə qarıyacaqsan.
24.06.1986/ Zuqulba

## BU HƏYATIM AĞLAR BİR NEY…

Bu həyatım ağlar bir ney,
Bəmdə, zildə ötər, sənsiz.
Hər sözümdən yağar giley,
Xoş günlərim bitər, sənsiz.

Diri ikən dünyam gordu,
Alışıbdı sinəm qordu,
Ürək səni məndən sordu,
Özüm ondan betər, sənsiz!

Necə dözüm bu gedişə?
Ömrüm ilə bəd gərdişə,
Gedər əldən sevinc, nəşə,
Səadətim itər, sənsiz.

Həsrət məni yaraladı,
Taleyimi qaraladı,
Ağ bəxtimi qaraladı,
Yolumda çən bitər, sənsiz.

Hicran qəmə muştuluqçu,
Şadimanın nədir suçu?
Dalınca bu ürək uçub
Yoxdu xəbər-ətər, sənsiz.
27.11.1990/ Qızılqum

## EY MƏNİM TALEYİMİN SABAHI

Ey mənim taleyimin sabahı,
Ömrümün, günümün pənahı,
Həsrəti könlümün günahı –
Harada qaldın?
Bəlkə kiminsə qəlbində yurd saldın,
Gəl, gəlişinlə yanıqlı könlümə bir içim su ol,
Nə məndən inci, nə də asi ol.
Bilmirəm hara aparır məni bu yol…
Fəqət hirsinlə, hikkənlə,
Həyat oynu oynama mənlə.

Gah şirin, gah acı sözlərinlə,
Bir cüt ala gözlərinlə –
Mənimki ol,
Mənimki ol.

22.07.1990

## İ K İ L İ K L Ə R

Duyğudan qopmasa xeyir əməllər,
Allaha açıla qalacaq əllər…
**
İçində yatmışsa vicdanın əgər,
Bil, əllərin haqqın başına döyər.
**
Qulağın almasa qadir səsləri,
Gözün görməyəcək müqəddəsləri.
**
Tale də insananın öz əlindədir,
İşində, gücündə, əməlindədir.
**
Güclülər həmişə gücsüzü əzir,
Çünki başlarında şeytandı gəzir.
**
Yaradan dünyanı yaratdı qəmlə,
Batırdı ağrını sirli aləmlə.
**
İnsan can sirrini heç vədə bilməz,
Canı yaradanın özüsə ölməz…
**
Naqislər əlində ağlayır bəşər,
Ağlı fəth eləyib əbədi bu şər.
**
Heç kəs yığdığını aparmır gora,
Bəs nədən ağlımız düşübdü tora?
**

Zülmətdən boylanan Ay nura bənzər,
Gecənin boynunu sədəftək bəzər.

**

Hər kəs Yaradanı dərk edə bilməz,
İdrakı deyənə ərk edə bilməz.

**

Zaman saatlara etdikcə əmir,
Çağlayıb su təki hey axır ömür.

**

Nadanlar əlində can olub əsir,
Düzlükdən dəm vuran düzlüyü kəsir.

**

Dünya xəlq olanan qeylü-qaldadı,
Xeyr ayrılıqda, şər vüsaldadı.

**

Gecənin qoynundan al səhər doğur,
Sabah öz ipiylə zülməti boğur.

**

**

Yerlə yeksan oldu bu dünya min yol,
Heç tapa bilmədi haqq evinə yol…

**

Allahın ibadət evinə gedən,
Allahı içində aramır nədən?

**

Dunya həm yas evi, həm toy, həm də ün,
Dağılar hər kəsin xanəsi bir gün.

**

Pislikdən yaranıb yəqin ki, bəşər,
Odur ki, içində bardaş qurub şər.

**

Sındırma heç kəsin qəlbini nahaq,
Canı mühakimə eyləyəcək haqq.

**

Həqiqi məhəbbət dilə gəlməyir,
Yaşayır can ilə heç vaxt ölməyir.

**

Ömür ayağımız altında təkər,
Ağıl dərk eləyər, can ağrı çəkər.

**

Nadanlar dünyanın özünə yükdü,
Dünyanın özündən dərdi böyükdür.

**

Ocağın yanması hislə bilinər,
Yaxşının qədiri pislə bilinər.

**

Üzünə güləndən qoru özünü,
Gülüşlə gizlədər, çünki üzünü.

**

Taleyi boşuna buraxsan, əgər-
Axırda çevrilib başına döyər.

**

Əlacsız qalana yetir əlini,
Allah özü görür hər əməlini.

**

Pisdən ibrət alma, xeyirdən götür,
Demə, hər yamanlıq boş yerə ötür.

**

Hamı qarışdırıb yaxşı-yamanı,
Heç kəs dərk eləmir axır zamanı.

**

Həqiqət çəkilib əzəldən dara,
Odur ki, xilqətin köksündə yara.

**

Nəfsə əsir olan nəfsinə enir,
Axırda nəfsinin quluna dönür.

**

Nə qədər şüurda şər qurubdu taxt,
Dünyanın xilası görünməz heç vaxt.

**

Zaman saatlara vurur naxşını,
Çəkməz üstümüzdən biryol baxşını.

**

Düşünən başların ağrısı böyük,
Dünyanın əzabı çiyinində yük.

**

Hər sədəf içinə mirvari yatır,
Dənələr içində incilər yatır.

**

Nədir bəs könlünü günahkar edən?
Allahın evinə imana gedən?…

**

Sübhün şəfəqləri tor qurub çənə,
Hər şəfəq içində bir bülur dənə.

**

Səadət qapını döyməz boş yerə,
O meyvə deyil ki, tökülsün yerə.

**

Həyanı itirən həyadan deyər,
Həyanın özünü diliylə döyər.

**

Umma namərdlərdən heç zaman vəfa,
Axırda özünə deyər bivəfa.

**

Şöhrətin əsiri olan hər kəsin,
Sonunda şöhrət də kəsər nəfəsin.

**

Eşq – Allahdan gələn ilahi sevda,
Odur ki, həm ruha, həm cana qida.

**

Baş qapsın açır şüura yan deyir,
Ağlın fəryadına ürək can deyir.
**
Zülmə mübtəladı bəşər övladı,
Odur ki, zülümlə çəkilir adı.
**
Günahlar içində əlləşən insan,
Günahın özünə olacaq ehsan.
**
Əzrayıl döyməyən qapı qoymayır,
Yedikcə tənləri gözü doymayır.
**
Həqiqət içindən hikmət boylanır,
Hikmətin özündən nemət boylanır.
**
Hər öz millətinə kəsilən yağı,
Axırda özü də görəcək dağı.
**
Özgə havasıyla oynayanların,
Sonunda özgələr alar canların.
**
Düzlüklə yuğura bilsən bətini,
İlahi əskiltməz məhəbbətini.
**
Allah dərgahına əl açmaq neçin?
Bizi yaratmayıb dilənmək üçün!
**
Vətən – hər millətin dunya neməti,
Millətin özündən aslı hörməti.
**
Dil bıçaqla kəsər ürək vaylanar,
Ürəyin başına ağıl haylanar.
**
10.X.2005

Qapılıb zehinə enmə dərinə,
Ürək tab eyləməz ağıl yerinə.
**
Səhər açılır zülmlə,
Axşam gəlir ölümlə...
18. 06. 2006